# “AZƏRBAYCAN MİKRO-KREDİT BANK OLMAYAN KREDİT TƏŞKİLATI” MMC-NİN 31.12.2017-Cİ İL TARİXƏ MALİYYƏ HESABATLARI VƏ MÜSTƏQİL AUDİTORUN HESABATI

Bakı-2018

MÜNDƏRİCAT


| | |
|---|---|
| Maliyyə hesabatlarının hazırlanması və təsdiqlənməsi ilə bağlı rəhbərliyin məsuliyyətinə dair hesabat | 3 |
| Müstəqil auditorun hesabatı | 4-5 |
| Maliyyə vəziyyəti haqqında hesabat | 6 |
| Mənfəət və zərər haqqında hesabat | 7 |
| Kapitalda dəyişikliklər haqqında hesabat | 8 |
| Pul vəsaitləri nin hərəkəti haqqında hesabat | 9 |
| Maliyyə hesabatlarına şərhlər və qeydlər | 10-32 |

## 31 DEKABR 2017-ci İL TARİXİNƏ BAŞA ÇATAN İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏTƏSDİQLƏNMƏSİİLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNƏ DAİR HESABAT

Rəhbərlik "Azərbaycan Mikro-Kredit Təşkilatı" MMC-nin 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyətini, eləcə də həmin tarixəbaşa çatan il üzrə maliyyə nəticələri, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri düzgün əks etdirən Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq olaraq hazılanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik aşağıdakılara cavabdehdir:

- Mühasibat uçotu qaydalarının müvafiq şəkildə seçilməsi və tətbiqinə;
- Məlumatların, o cümlədən mühasibat uçotu qaydalarının müvafiq, mötəbər,müqayisəli və anlaşıla bilən tərzdə təqdimatına;
- İstifadəçilərə xüsusi əməliyyatların, digər hadisə və şəraitlərin Cəmiyyətin maliyyə vəziyyəti və maliyyə nəticələrinə təsirini anlamaqda yardım göstərilməsi üçün MHBS-nın xüsusi tələblərinin yerinə yetirilməsi kifayət etmədikdə əlavə açıqlamalar verilməsinə;
- Cəmiyyətin fasiləsizlik prinsipinə əsasən fəaliyyətini davam etdirə bilməsi imkanlarının qiymətləndirilməsinə;

Həmçinin rəhbərlik aşağıdakılara görə məsuldur:

- Cəmiyyətin daxilində sağlam və effektiv daxili nəzarət sisteminin yaradılması, tətbiqi və saxlanılmasına;
- Cəmiyyətin əməliyyatlarının açıqlanması və izah edilməsi, habelə,onun maliyyə hesabatlarının istənilən vaxt dəqiqliklə açıqlanması üçün yetərli olan və Cəmiyyətin maliyyə hesabatlarının MHBS-na uyğun gəldiyini təmin ede biləcək müvafiq mühasibat uçotu qeydlərini aparılması;
- Azərbaycan Respublikasının qanunvericiliyi və mühasibat uçotu qaydalarına müvafiq olaraq məcburi mühasibat uçotu qeydlərinin aparılmasına;
- Cəmiyyətin aktivlərinin mühafizə olunması üçün mümkün tədbirlər görülməsinə;
- Saxtakarlıq və digər pozuntuların müəyyən edilməsi və qarşısının alınmasına.

Cəmiyyətin 31 dekabr 2017-ci il tarixinə başa çatan il üzrə maliyyə hesabatları 28 mart 2018-ci il tarixində rəhbərlik tərəfindən təsdiq olunmuşdur.

**Cəmiyyət tərəfindən:**

**X. İSMAYILOV**

**Cəmiyyətin direktoru**

*28 mart 2018-ci il*

*Bakı, Azərbaycan Respublikası*

**X. MEHDİYEVA**

**Cəmiyyətin nəzarət şöbə rəisi**

Sapphire Plaza, 5th floor
Nizami str.1/3, Baku, Azerbaijan
Phone: (+994 12) 505 58 47/48
Fax: (+994 12) 505 58 48
E-mail: office@cc.baku.az
www.caspian-consulting.com

# MÜSTƏQİL AUDİTORUN HESABATI

**"Azərbaycan Mikro-Kredit Bank Olmayan Kredit Təşkilatı" MMC-in rəhbərliyinə**

Ünvan: AZ1000, Bakı şəhəri, Səbail rayonu , Nizami küçəsi ev 68.

**Rəy**

Biz, "Azərbaycan Mikro-Kredit Bank Olmayan Kredit Təşkilatı" MMC-in (bundan sonra "Cəmiyyət") 31 dekabr 2017-ci il tarixinə olan maliyyə vəziyyətinin hesabatdan, məcmu gəlirlər hesabatdan, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Fikrimizcə, maliyyə hesabatları "Azərbaycan Mikro-Kredit Bank Olmayan Kredit Təşkilatı" MMC-in 31 dekabr 2017-ci il tarixinə olan maliyyə vəziyyətini və həmin tarixdə bitmiş il üzrə maliyyə nəticələri və pul vəsaitlərinin hərəkəti haqqında hesabatları bütün əhəmiyyətli aspektləri baxımından Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq obyektiv şəkildə təqdim edir.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatları üçün rəhbərliyin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik

Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Auditorların məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

"Caspian Consulting and Partners" MMC
Ünvan: Bakı ş. Nizami küç. 1/3

Direktor: Elnura Abdinova ____________
Auditor: Elnura Abdinova ____________

Tarix: 28.03.2018

**"Azərbaycan Mikro-Kredit Bank Olmayan Kredit Təşkilatı" MMC**
**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**
**31 Dekabr 2017-cı il tarixinə**

| | Qeyd | min manatla<br>31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|---|
| AKTİVLƏR | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 10 | 69 607.88 | 106 170.54 |
| Banklardakı müddətli depozitlər | | - | |
| Müştərilərə verilmiş kreditlər üzrə debitor borc | 12 | 2 891 818.59 | 3 860 012.94 |
| Cari mənfəət vergisi aktivləri | | 5 713.36 | |
| Əsas vəsaitlər | 13 | 155 251.83 | 112 758.18 |
| Qeyri-maddi aktivlər | 14 | 13 391.29 | 14 805.90 |
| Gələcək dövrün xərcləri | | 19 795.03 | 17 441.86 |
| Digər aktivlər | | 773.72 | |
| **CƏMİ AKTİVLƏR** | | **3 156 351.70** | **4 111 189.42** |
| **KAPİTAL VƏÖHDƏLİKLƏR** | | | |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | | 2 237 000.00 | 1 137 000.00 |
| Kapital ehtiyatları | | | |
| Bölüşdürülməmiş mənfəət | | 100 026.33 | 77 031.44 |
| **CƏMİ KAPİTAL** | | **2 337 026.33** | **1 214 031.44** |
| **ÖHDƏLİKLƏR** | | | |
| Mənfəət və zərər hesablarında ədalətli dəyərlə qeyd edilən maliyyə öhdəlikləri | | | |
| Digər borc alınmış vəsaitlər | 15 | 799 293.18 | 2 882 555.56 |
| Cari mənfəət vergisi üzrə öhdəlik | | | 11 345.77 |
| Digər öhdəliklər | 16 | 20 012.19 | 3 256.65 |
| Subordinasiyalı borc | | | |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **819 325.37** | **2 897 157.98** |
| **CƏMİ KAPİTAL VƏÖHDƏLİKLƏR** | | **3 156 351.70** | **4 111 189.42** |

**28 mart 2018-ci il tarixində Cəmiyyət tərəfindən təsdiqlənmiş və onun adından imzalanmışdır**

**X. İsmayılov**
*Cəmiyyətin Direktoru*

**X. Mehdiyeva**
*Cəmiyyətin nəzarət şöbə rəisi*

# MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HAQQINDA HESABAT
**31 Dekabr 2017-ci il tarixinə**

| | Qeyd | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|---|
| Faiz gəliri | 5 | 780 750.80 | 813 054.60 |
| Faiz xərci | 5 | (112 990.47) | (178 739.37) |
| **XALİS FAİZ GƏLİRİ** | | **667 760.33** | **634 315.23** |
| Faiz hesablanan maliyyə aktivləri üzrə xalis faiz gəlir, komisyon haqları | 5 | 77 238.65 | 46 057.41 |
| Müsbət məzənnə fərqi | | 2 387.01 | 19 778.03 |
| Digər maliyyə gəliri | | 19 911.89 | 15 605.28 |
| Faiz hesablanan aktivlər üzrə dəyərsizləşmə zərəri üçün ehtiyyatda dəyişiklik | 9 | (71 359.58) | (63 616.35) |
| **Əməliyyat gəlirinin cəmi** | | **695 938.30** | **652 139.60** |
| Əməliyyatlar üzrə xərc | | (3 262.88) | (4 901.59) |
| Mənfi məzənnə fərqi | | (3 343.35) | (14 210.49) |
| Əsas vəsaitlərin silinməsindən xalis zərər | | (29 166.86) | (11 660.70) |
| İcarə haqqı | | (180 441.86) | (238 372.14) |
| Əmək haqqı | | (188 607.75) | (105 750.09) |
| DSMF ayırmaları | | (41 445.33) | (23 265.01) |
| İnzibati və digər əməliyyat xərcləri | 8 | (123 953.13) | (142 250.72) |
| Xalis digər gəlirlər | | | |
| **Xalis qeyri-faiz zərəri** | | **(570 221.16)** | **(540 410.74)** |
| **Əməliyyat gəliri** | | | |
| Mənfəət vergisindən əvvəl gəlir | 9 | 125 717.14 | 111 728.86 |
| Mənfəət vergisi xərci | 9 | (25 690.81) | (22 345.77) |
| **İl üzrə xalis mənfəət** | | **100 026.33** | **89 383.09** |
| **İl üzrə cəmi məcmu gəlir** | | | |

**28 mart 2018-ci il tarixində Cəmiyyət tərəfindən təsdiqlənmiş və onun adından imzalanmışdır.**

**X.İsmayılov**

*Cəmiyyətin Direktoru*

**X.Mehdiyeva**

*Cəmiyyətin nəzarət şöbə rəisi*

## KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
## 31 Dekabr 2017-ci il tarixinə

| | Qeyd | Nizamnamə Kapitalı | Kapital ehtiyyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi Kapital |
|---|---|---|---|---|---|
| 1 yanvar 2016-cı il tarixə qalıq | | 600 000.00 | - | 46 594.91 | 646 594.91 |
| 2016-cı il üzrə xalis mənfəət (zərər) | | | | 77 031.44 | 77 031.44 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | 500 000.00 | | | 500 000.00 |
| Elan edilmiş dividendlər | | | | | |
| Maddələr arasında köçürmələr | | 37 000.00 | | (46 594.91) | (9 594.91) |
| 31 dekabr 2016-cı il tarixə qalıq | | 1 137 000.00 | | 77 031.44 | 1 214 031.44 |
| 2017-ci il üzrə xalis mənfəət | | | | 100 026.33 | 100 026.33 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | 1 100 000.00 | | | 1 100 000.00 |
| Elan edilmiş dividendlər | | | | | |
| Maddələr arasında köçürmələr | | | | (77 031.44) | (77 031.44) |
| 31 dekabr 2017-ci il tarixə qalıq | | 2 237 000.00 | | 100 026.33 | 2 337 026.33 |

28 mart 2018-ci il tarixində Cəmiyyət tərəfindən təsdiqlənmiş və onun adından imzalanmışdır.

X. İsmayılov

*Cəmiyyətin Direktoru*

X. Mehdiyeva

*Cəmiyyətin nəzarət şöbə rəisi*

Azərbaycan Mikro-Kredit Bank Olmayan Kredit Təşkilatı" MMC

# PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
## 31 Dekabr 2017-ci il tarixinə

Azərbaycan manatı ilə

| | Qeyd | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|---|
| **Əsas fəaliyyət nəticəsinə görə pul vəsaitlərinin hərəkəti** | | | |
| Kredit üzrədaxilolmalar (əsasfəaliyyət üzrə) | | 4 247 353.27 | 4 513 713.21 |
| Əsas fəaliyyətin digər növlərindən daxilolmalar | | 31 019.00 | 10 161.25 |
| ***Cəmi daxilolmalar*** | | **4 278 372.27** | **4 523 874.46** |
| Əməliyyat xərci | | (254 689.10) | (371 733.76) |
| Əmək haqqı və üzrə ödənişlər | | (162 337.54) | (88 257.32) |
| Vergi və DSMF ödənişləri | | (144 970.27) | (102 374.21) |
| İcarə haqqı ödənişi | | (29 240.00) | |
| Təhtəlhesab şəxslərlə hesablaşmalar | | (861.99) | |
| Müştərilərə verilmiş kreditlər | | (2 494 005.22) | (4 495 688.55) |
| ***Cəmi hesablaşmalar*** | | **(3 086 104.12)** | **(5 058 053.84)** |
| **Əsas fəaliyyət nəticəsində pul vəsaitlərin daxilolması/xərclənməsi** | | **1 192 268.15** | **(534 179.38)** |
| **İnvestisiya fəaliyyəti nəticəsində pul vəsaitlərinin hərəkəti** | | | |
| Əmlakın, sahənin (bina və tikililər) və avadanlığın əldə edilməsinə görə ödəniş | | (52 047.00) | (81 609.22) |
| **İnvestisiya fəaliyyəti nəticəsində pul vəsaitlərinin daxiloması/xərclənməsi** | | **(52 047.00)** | **(81 609.22)** |
| **Maliyyə fəaliyyəti nəticəsində pul vəsaitlərinin hərəkəti** | | | |
| Qısa və uzunmüddətli borclar üzrə daxilolma | | | 988 051.00 |
| Qısa və uzunmüddətli borcların ödənişləri | | (2 482 706.82) | (782 494.00) |
| Faiz ödənişləri | | (112 714.35) | (178 184.19) |
| Dividentlərin ödənişləri | | (69 328.30) | |
| Digər borc alınmış vəsaitlər üzrə daxilolmalar | | 400 000.00 | |
| Digər borc alınmış vəsaitlərüzrə faizlərin ödənilməsi | | (12 000.00) | |
| Əlavə ödənilmiş kapital | | 1 100 000.00 | 500 000.00 |
| Məzənnə fərqi | | (34.34) | 1 533.75 |
| **Maliyyə fəaliyyəti nəticəsində pul vəsaitlərinin daxilolması/xərclənməsi** | | **(1 176 783.81)** | **528 906.56** |
| **Pul vəsaitlərinin həcminin xalis artımı/azalması** | | **(36 562.66)** | **(86 882.04)** |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | 10 | **106 170.54** | **193 052.58** |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | 10 | **69 607.88** | **106 170.54** |

**28 mart 2018-ci il tarixində Cəmiyyət tərəfindən təsdiqlənmiş vəonun adından imzalanmışdır.**

**X.İsmayılov**

*Cəmiyyətin Direktoru*

**X.Mehdiyeva**

*Cəmiyyətin nəzarət şöbə rəisi*

## 1. CƏMİYYƏT HAQQINDA

Cəmiyyət nizamnaməsi 2014-cü ilin 24 aprel tarixində 1701618531 (VEÖN) qeydiyyatı nömrəsi ilə Azərbaycan Respublikası Vergilər Nazirliyinin Bakı şəhər Vergilər Departamentinin Kommersiya Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır.

Cəmiyyətin təsisçisi Şıxəliyev Fuad Vaqif oğlu (şəxsiyyət vəsiqəsi AZE № 09977952,30.10.2012-ci il tarixində Xətai RPİ tərəfindən verilib ) olmuşdur.

Cəmiyyət nizamnamə kapitalının əvvəlki miqdarı 300000,00 (üç yüz min) manat məbləğində olmuşdur.

Azərbaycan Respublikası Vergilər Nazirliyi Kommersiya Hüquqi şəxslərinin 21.06.2017-ci il tarixli 1701020019159500 nömrəli dövlət reyestrindən çıxarışa əsasən, Cəmiyyət nizamnamə kapitalının miqdarı 2237000,00 (iki milyon iki yüz otuz yeddi min) manat məbləğində və hər biri 100,00 (yüz) manat olmaqla 22370(iyirmi iki min üç yüz yetmiş) paydan ibarətdir.

Cəmiyyət iştirakçılarının nizamnamə kapitalındakı payları aşağıdakı kimi müəyyən olunmuşdur:

Şıxəliyev Fuad Vaqif oğlu-100%, 2237000,00 (ikimilyon iki yüz otuz yeddi min) manat, 22370 (iyirmi iki min üç yüz yetmiş) pay pul şəklində.

Cəmiyyətin müşahidə şurasının üzvləri Mahmudov Emil İlyaz oğlu, Hüseynov Rəsul Hüseyin oğlu və Xəlilov Sənan Əliövsət oğlu və qanuni təmsilçisi İsmayılov Xəyal Vahid oğlu olmuşdur.

Cəmiyyətin hüquqi ünvanı : AZ1000, Bakı şəhəri, Səbail rayonu , Nizami küçəsi ev 68.

Cəmiyyət Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada az gəlirli şəxslər, məcburi köçkün, qaçqınlara, demobilizə olan və müharibədən zərər çəkən digər şəxslərə, sahibkarlara, fiziki və hüquqi şəxslərə, o cümlədən az təminatlı icmaların ümumi rifah halının yaxşılaşdırılmasına çalışan maliyyə institutlarına qısa və uzun müddətli, təminatlı və təminatsız kreditlər verə bilər.
Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən "Azərbaycan Mikro-Kredit Bank Olmayan Kredit Təşkilatı" MMC 23 iyun 2014-cü il tarixində BKT-25 saylı lisenziyaların mərkəzi reyesterinə daxil edilmişdir.

BOKT tərəfindən verilən kreditlər daşınar və daşınmaz əmlakın girovu, girov əmanəti, qarantiya zaminlik və qanunvericiliklə nəzərdə tutulmuş digər üsullarla təmin oluna bilər. Girov əmanəti yalnız Mərkəzi Bankın BOKT-na verdiyi lisenziyada bu barədə xüsusi icazə olduqda qəbul edilə bilər;

Kreditlərin verilməsi üçün lisenziya almış BOKT aşağıdakı fəaliyyət növlərini də həyata keçirə bilər:

1. borc öhdəliklərinin alqı satqısı (faktorinq, forfeytinq);
2. lizinq;
3. veksellərin uçotu;
4. qarantiyanın verilməsi;

5. sığorta agenti xidmətinin göstərilməsi;
6. borc alanlara, o cümlədən birgə borcalan qruplarına maliyyə, texniki və idarəetmə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi.

## 2.MÜHÜM MÜHASİBAT UÇOTU SİYASƏTLƏRİ

### Uyğunluq haqqında bəyanat

Bu maliyyə hesabatları Mühasibat Uçotu üzrə Beynəlxalq Standartları Şurası ("MUBSŞ")tərəfindən buraxılmış Maliyyə Hesabatlarının Beynəlxalq Stndatlarına və Beynəlxalq Maliyyə Hesabatlarının Şərhi Komitəsi ("BMHŞK") tərəfindən verilmiş şərhlərə müvafiq olaraq hazırlanmışdır.

### Əməliyyat valyutası

Cəmiyyətin maliyyə hesabatlarına daxil edilən maddələr Cəmiyyətin fəaliyyət göstərdiyi əsas iqtisadi mühitdəki valyutanı ("əməliyyat valyutası") istifadə etməklə ölçülür. Cəmiyyətin əməliyyat valyutası AZN-dir.Cəmiyyətin maliyyə hesabatlarının təqdim olunduğu valyuta AZN-dir. Azərbaycan Respublikası Mərkəzi Bankının qaydalarına uyğun olaraq bu maliyyə hesabatlarında yerli valyuta təqdimat valyutası kimi istifadə olunur.

### Əvəzləşdirmə

Maliyyə aktivləri və maliyyə öhdəlikləri yalnız uçotda tanınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanuni hüquq mövcud olduqda və xalis məbləğ əsasında hesablaşmalar aparılması, yaxud da eyni vaxtda aktivlərin satılması və öhdəliyin yerinə yetirilməsi nəzərdə tutulduqda bir-birinə qarşı əvəzləşdirir,xalis məbləği isə maliyyə vəziyyəti haqqında hesabatda bildirilir. Hər hansı mühasibatuçotu standartı və ya şərhi ilə tələb olunmayana və ya icazəverilməyənədək və Cəmiyyətin mühasibat uçotu qaydalarında konkret göstərilməyənə qədər gəlir və xərc mənfəət və ya zərər haqqında bir-birinə qarşı əvəzləşdirmir.

### Faiz gəlirlərinin və xərclərinin tanınması

Maliyyə aktivi üzrə faiz gəliri Cəmiyyətdə iqtisadi mənfəətin daxil olması ehtimalı olduqda və gəlir məbləğinin etibarlı qiymətləndirilməsi mümkün olduqda tanınır.Faiz gəliri və xərci effektiv faiz metodundan istifadə etməklə hesablama metodu ilə uçot əsasında tanınır. Effektiv faiz metodu maliyyə aktivi və ya maliyyə öhdəliyinin (yaxud maliyyə aktivləri və öhdəlikləri qrupunun) amortizasiya olunmuş dəyərinin hesablanması və faiz gəliri yaxud faiz xərcinin müvafiq dövrü üzrə bölüşdürülməsi üsüludur.

Effektiv faiz dərəcəsi borc alətinin nəzərdə tutulan müddəti və ya (tətbiq olunarsa) daha qısa müddət ərzindəhesablanmış nağd pul daxilolmalarını (o cümlədən, effektiv faiz dərəcəsinin ayrılmaz hissəsinitəşkil edən məntəqələrdə ödənilmiş və ya alınmış bütün haqlar, əməliyyat xərcləri vədigər mükafat yaxud endirimlər) ilkin tanınma anında xalis balans məbləğinədək dəqiqliklə diskonlaşdırılan dərəcədir.

Maliyyə aktivi, yaxud analoji maliyyə aktivləri qrupu ehtimal olunan zərərin baş verməsi nəticəsində hesabdan (qismən bir hissəsi) silinərsə, faiz gəliri bundan sonra dəyərsizləşmə üzrə zərərin ölçülərini müəyyən etmək məqsədilə gələcək pul vəsaitləri hərəkətinin dikontlaşdıran dərəcədir.

Maliyyə aktivi, yaxud analoji maliyyə aktivləri qrupu ehtimal olunan zərərin baş verməsi nəticəsində hesabdan (qismən bir hissəsi) silinərsə, faiz gəliri bundan sonra dəyərsizləşmə üzrə zərərin ölçülərini müəyyən etmək məqsədilə gələcək pul vəsaitləri hərəkətinin dikonlaşdırılması üçüntətbiq edilən faiz dərəcələrindən istifadə olunmaqla uçotda tanınır.

Ədalətli dəyərlə qeyd edilən aktivlər qazanılmış faizlər faiz gəliri hissəsində təsnif edilir.

**Maliyyə aktivləri**

Cəmiyyətin maliyyə aktivləri aşağıdakı xüsusi kateqoriyalar üzrə təsnifləşdirilir: "Mənfəət və ya zərər üzrə ədalətli dəyərlə tanınan maliyyə aktivləri, "ödəniş müddətinə qədər saxlanılan " investisiyalar , "satıla bilən " maliyyə aktivləri və "kreditlər və debitor borcları" . Təsnifləşdirmə maliyyə alətinin növündən və məqsədindən asılıdır və ilkin tanınma zamanı müəyyən olunur.

**Kreditlər və debitor borcları**

Sabit və ya müəyyən oluna bilən ödənişli və fəal bazarda qiyməti bəyan edilməmiş ticarət debitor borcları,kreditlər və digər debitor borcları "Kreditlər vədebitor borcları" kimi təsnif edilir. Kreditlər və debitor borcları effektiv faiz dərəcəsi metodundan istifadə etməklə dəyərsizləşmə çıxıldıqdan sonra amortizasiya olunmuş dəyərdə ölçülür. Faiz gəliri, faizin tanınması cüzi əhəmiyyət kəsb etdiyi qısamüddətli kreditlər istisna edilməklə, effektiv faiz dərəcəsini tətbiq etməklə uçotda tanınır.

Maliyyə aktivlərinin dəyərsizləşməsi

Maliyyə aktivlərinin dəyərsizləşmənin müəyyən edilməsi məqsədilə hər hesabat dövrünün sonunda qiymətləndirilir. Maliyyə aktivinin ilkin tanınmasından sonra baş vermiş bir və ya bir neçə hadisə nəticəsində investisiyalar üzrə gələcək pul daxilolmalarının təsirə məruz qaldığını isbat edən obyektiv sübut yaranarsa,maliyyə aktivləri dəyərsizləşmiş hesab edilir.

Maliyyə aktivləri üçün dəyərsizləşməni göstərən amillərə aşağıdakılar daxil ola bilər:

- Emitent və ya qarşı tərəfin əhəmiyyətli maliyyə çətinlikləri;
- Əsas borc məbləği və ya faizlərin vaxtında ödənilməməsi və ya ödəmə öhdəliyin yerinə yetirilməməsi halları kimi müqavilə şərtlərinin pozulması;
- Borclarının müflisliyə uğrayacağı vəya maliyyə strukturunun yenidən təşkil edəcəyi güman olunduqda; yaxud da
- Maliyyə çətinlikləri səbəbindən qeyd olunan maliyyə aktivinin təqdim edildiyi fəal bazar məkanlarının yox olması;

Kreditlər və debitor borcları kimi müəyyən maliyyə aktivi kateqoriyaları halında, ayrı-ayrılıqda dəyərsizləşməyəcəyi müəyyən edilən aktivlər əlavə olaraq, dəyərsizləşmənin müəyyən olunması məqsədilə kollektiv şəkildə təhlil edilir. Kreditlər və debitor borcları portfelinin dəyərsizləşdiyini göstərən obyektiv sübutlarla Cəmiyyətin ödənişlərinin yığılması ilə bağlı keçmiş təcrübəsi,portfeldəvaxtı gecikdirilən ödəmələrin sayının artması,eləcə də borc öhdəliyinin yerinə yetirilməməsi iləəlaqələndirilən yerli və ya ölkənin iqtisadi şəraitlərində müşahidə olunan dəyişikliklər aid edilə bilər.

Amortizasiya olunmuş dəyərlə qeyd edilən maliyyə aktivləri halında, uçotda tanınmış ehtimal olunan dəyərsizləşmə zərərinin məbləği aktivin balans dəyəri ilə maliyyə aktivinin ilkin effektiv faiz dərəcəsində diskontlaşdırılmış təxmin edilən gələcək pul vəsaiti hərəkətinin cari dəyəri arasındakı fərqdən ibarətdir.

Maliyyə aktivinin balans dəyəri, dəyərinehtiyyatlar hesabına azalmasını nəzərdə tutan kreditlər və debitor borcları halı istisna edilməklə, bütün maliyyə aktivləri üçün birbaşa olaraq ehtimal olunan dəyərsizləşmə zərəri məbləğində azaldılır. Kreditlərin və ya debitor borcların yığılması mümkün olmadıqda,belə məbləğlər ehtiyyatlar hesabına qarşı silinir. Əvvəl silinmiş məbləğlərin daha sonra qaytarılması ehtiyatlar hesabına kreditləşdirilir. Ehtiyyatlar hesabının balans məbləğindəki dəyişikliklər mənfəət və ya zərər üzrə tanınır.

**Kreditlərin və avansların silinməsi**

Kreditlərin və avanslar yığılması mümkün olmadıqda kreditlər üzrə ehtimal olunan dəyərsizləşmə zərəri üçün ehtiyyatlata qarşı hesabdan silinir. Rəhbərlik Cəmiyyətə ödənilməli olan borcların yığılması üçün bütün mümkün vasitələrdən istifadə etdikdən sonra kreditlər və avanslar hesabdan silinir. Əvvəllər hesabdan silinmiş məbləğlərin sonradan bərpa edilməsi ödənişlərin qaytarılması dövründə mənfəət və ya zərər haqqında hesabatda maliyyə aktivlərinin dəyərsizləşməsi məbləğinə qarşı əvəzləşdirilir.

**Maliyyə alətlərinin tanınmasının dayandırılması**

Cəmiyyət yalnız aktivdən pul daxilolmaları üzrə oyun müqavilə hüquqlarının vaxtı bitdikdə yaxud maliyyə aktivini və aktiv üzrə mülkiyyət hüquqları ilə bağlı bütün əhəmiyyətli risk və mükafatlarıdigər tərəfə ötürdükdə maliyyə aktivinin tanınmasını dayandırır. Cəmiyyət aktiv üzrə mülkiyyət hüquqları ilə bağlı bütün əhəmiyyətli risk və mükafatları digər tərəfə köçürməzsə və ya özündə saxlamasa və köçürülmüş aktiv üzərində nəzarətini davam etdirərsə, o, aktivdə saxlanılmış payını və bununla əlaqədar ödəyəcəyi məbləğlər iləəlaqədar girovu təmin edilmiş borc vəsaitlərini də uçota tanıyır.

Maliyyə aktivinin tanınması təmamilə dayandırıldığı halda, maliyyə aktivinin balans dəyəri ilə nəzəri olaraq alınmış və alınacaq məbləğlər və digər məcmu gəlirdə tanınmış və kapitalda toplanan yığılmış gəlir və zərələr arasındakı fərq mənfəət və zərərdə tanınır.

Maliyyə aktivinin tanınmasının təmamilə dayandırılması halından başqa digər hallarda (məs. Cəmiyyət ötürülmüş aktivlərin bir hissəsinialmaq hüququnu saxlayırsa), Cəmiyyət maliyyə aktivinin əvvəl müəyyən edilmiş balans dəyərini maliyyə çətinliyi davam etdiyi müddətdə tanımağa davam etdiyi hissə ilə aktivlərin ötürülməsi tarixində hamin hissələrin nisbi ədalətli dəyərləri əsasında artıq tanımayan hissə arasında bölüşdürür. Artıq tanımayan hissəyə aid edilmiş balans dəyəri ilə artıq tanımayan hissə üzrə alınmış ödəniş məbləği və ona aid edilmiş, digər mənfəət haqqında hesabatda tanınmış hər hansı yığılmış gəlir və ya zərər arasında fərq mənfəət və ya zərər uçotunda tanınır. Digər mənfəət haqqında hesbatda tanınmış yığılmış gəlir və ya zərər tanınması davam edən hissə ilə belə hissələrin ədalətli dəyəri əsasında tanınması artıq dayandırılmış hissə arasında bölüşdürülür.

**Maliyyə öhdəlikləri**

Maliyyə öhdəlikləri ya mənfəət və ya zərər hesabatlarında ədalətli dəyərlə qeyd edilən maliyyə öhdəlikləri, ya da digər "digər maliyyə öhdəlikləri" kimi təsnif edilir.

**Digər maliyyə öhdəlikləri**

Digər maliyyə öhdəlikləri ilk olaraq əməliyyat xərcləri çıxılmaqla ədalətli dəyərlə ölçülür.

Digər maliyyə öhdəlikləri sonradan effektiv faiz metodu istifadə edilməklə və faiz xərcləri effektiv gəlir əsasında tanınmaqla amortizasiya olunmuş dəyərlərlə ölçülür.

Effektiv faiz metodu maliyyə öhdəliyinin amotizasiya olunmuş dəyərinin hesablanması və faiz xərclərinin müvafiq dövr üzrə bölüşdürülməsi üsuludur.Effektiv faiz dərəcəsi təxmin edilən gələcək nağd pul ödəmələrini (o cümlədən, effektiv faiz dərəcəsinin ayrılmaz hissəsini təşkil edən məntəqələrdə ödənilmiş yaxud alınmış bütün haqlar, əməliyyat xərcləri və digər mükafat yaxud endirimlər) maliyyə öhdəliyinin güman edilən müddəti, yaxud (məqsədə müvafiq hallarda) daha qısa müddət ərzində ilkin tanınma zamanı xalis balans dəyərinə qədər dəqiqliklə diskontlaşdırılan dərəcədir.

**Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması**

Maliyyə öhdəliyinin tanınması yalnız Cəmiyyət ödəniş ödədiyini yerinə yetirdikdə, belə ödəniş ləğv olunduqda yaxud müddəti başa çatdıqda dayandırır. Mövcud maliyyə öhdəliyi tam başqa şərtlərlə eyni kreditorun təqdim etdiyi digər öhdəliklə əvəzlənərsə, belə əvəzlənmə və ya düzəliş ilkin öhdəliyin tanınmasının dayandırılması və yeni öhdəliyin tanınması kimi qəbul edilir.Tanınması dayandırılmış maliyyə öhdəliyinin balans dəyəri ilə öhdəliklər üzrə ödənilmiş və ödəniləcək məbləğ arasındakı fərq mənfəət və zərər uçotunda tanınır.

**Derivativ (törəmə) maliyyə alətləri**

Cəmiyyət valyuta mübadiləsi ilə bağlı riskləri tənzimləmək məqsədilə xarici valyuta üzrə müxtəlif derivative forvard müqavilələri kimi törəmə maliyyə alətlərinə daxil olur.

Derivativlər derivative müqaviləsinin bağlandığı tarixdə ilkin olaraquçotda ədalətli dəyərlə tanınır və daha sonra isə hər hesabat dövrünün sonunda onların ədalətli dəyəri ilə yenidən qiymətləndirilir. Onların dövrünün sonuna olan ədalətli dəyərinə qarşı təkrar ölçülür. Nəticədə yaranmış gəlir və ya zərər derivativ hecinq aləti kimi təyin olunduqda və qüvvədə olduqda dərhal mənfəət və ya zərər hesabatında tanınır. Bu halda onların mənfəət və ya zərər hesabatında tanınması vaxtı hecinq əlaqələrinin xüusiyyətlərindən asılı olur. Derivativlərin ədalətli dəyəri məqbul olduqda onlar aktivlər kimi, mənfi olduqda isə öhdəliklər kimi qeydə alınır. Cəmiyyət bəzi derivativləri tanınmış aktivlərin və ya öhdəliklərin ədalətli dəyərinin hecinqi kimi və ya cəmiyyətin öhdəlikləri (ədalətli dəyər hecinqi), yüksək ehtimallı proqnoz əməliyyatlarının hecinqi və ya cəmiyyət öhdəliklərinin xarici valyuta riskinin hecinqi (pul vəsaitləri hecinqi) və ya xarici əməliyyatlara xalis investisiyaların hecinqi kimi müəyyən edir.

**İcarə**

İcarənin şərtlərinə əsasən mülkiyyət hüququ üzrə bütün risk və mükafatlar icarəçiyə ötürüldüyü zaman belə icarə maliyyə icarəsi kimi təsnifləşdirilir. Bütün digər icarələr əməliyyat icarəsi kimi təsnifləşdirilir.

**Cəmiyyət- İcarəyə götürən tərəf kimi**

Əməliyyat lizinqi ilə bağlı ödənişlər, lizinq obyekti olan aktiv üzrə iqtisadi mənfəətin tanınması üçün belə mənfəətin daxil olduğu müddəti daha uyğun əks etdirən digər bir metodun istifadə edildiyi hallar istisna olmaqla, lizinq müddəti ərzində düzxətli metod əsasında xərc kimi tanınır.

Əməliyyat icarəsi sövdələşməsinin bağlanması üçün icarə stimulları əldə olunduqda belə stimullar öhdəlik kimi tanınır. Stimullar üzrə ümumi mənfəət, lizinq obyekti olan aktiv üzrə iqtisadi mənfəətin tanınması üçün belə mənfəətin daxil olduğu  müddəti daha uyğun əks etdirən digər bir metodun istifadə edildiyi hallar istisna olmaqla, düz xətt üsulu əsasında icarə haqqı xərclərinin azalması kimi tanınır.

**Pul vəsaitləri və onların ekvivalentləri**

Pulvəsaitlərivə onların ekvivalentləri müqavilə öhdəliklərindən azad olmaqla kassadakı nağd vəsaitlərdən, köçürülmüş vəsaitlərdən və banklardakı həqiqi ödəmə müddəti 90 gün və ya ondan az olan cari hesablardan ibarətdir.

**Əmlak və avadanlıq**

Daşınmaz əmlak və avadanlıq yığılmış köhnəlmə və yığılmış dəyərsizləşmə zərərləri çıxılmaqla ilkin dəyərlə göstərilir.

Əmlak avadanlıqlarının obyekti hesabdan silindikdə və ya onların davamlı istifadəsi artıq heç bir iqtisadi mənfəət gətirmədikdə, belə aktivlərin tanınması dayandırılır. Əmlak və avadanlıq obyektlərinin satılaraq hesabdan silinməsi və ya istismardan çıxarılmasından irəli gələn hər hansı gəlir və ya zərələr belə aktivlərin balans dəyəri ilə satışdan əldə olunmuş gəlirlər arasında fərq kimi müəyyən edilir və mənfəət və ya zərər hesabatında tanınır.

## Qeyri-maddi aktivlər

Ayrı ayrılıqda alınmış qeyri-maddi aktivlər

Müəyyən istismar müddəti olan ayrı-ayrılıqda alınmış qeyri-maddi aktivlər yığılmış köhnəlmə və yığılmış dəyərsizləşmə zərəri çıxılmaqla ilkin dəyər ilə uçotda qeyd edilir. Amortizasiya aktvinin təxmin edilən faydalı istismar müddəti ərzində düz xətt metodundan istifadə etməklə uçotda tanınır. Təxmin edilən faydalı istismar müddəti və köhnəlmə metodu gələcək dövrlər üzrə uçota alınan təxminlərdəkihər hansı dəyişiklərin təsiri nəzərə alınmaqla hər hesabat dövrünün sonunda təhlil edilir. Ayrılıqda alınmış və qeyri-müəyyən istismar müddətləri olan qeyri-maddi aktivlər yığılmış dəyərsizləşmə zərərləri çıxılmaqla ilkin dəyərlə uçota alınır. Hesablanmış faydalı istismar müddətləri, qalıq dəyərləri və köhnəlmə metodu hesablamalarda hər hansı dəyişikliklərin təsirini gələcək dövrlər üzrə uçota almaqla hər hesabat dövrünün sonunda 20-30% arası olan illik dərəcələrlə təhlil edilir:

## Qeyri-maddi aktivlərin tanınmasının dayandırılması

Qeyri-maddi aktivlər satılaraq hesabdan silindikdə yaxud onların sonrakı istismarı və ya satılması gələcəkdə iqtisadi mənfəət gətirmədikdə, belə aktivlərin tanınması dayandırılır. Qeyri-maddi aktivlərin tanınmasının dayandırılmasından yaranan gəlir və ya zərər, belə aktivlərin balans dəyəri ilə satışdan əldə olunan xalis gəlir məbləği arasındakı fərq kimi ölçülür və aktivin tanınması dayandırıldığı zaman mənfəət və ya zərər haqqında hesabatda tanınır.

## Maddi və qeyri-maddi aktivlərin dəyərsizləşməsi

Cəmiyyət maddi və qeyri-maddi aktivlərin dəyərsizləşməyə məruz qalaraq qiymətlərin düşüb-düşmədiyini müəyyənləşdirmək üçün hər hesabat dövrünün sonunda bele aktivlərin balans dəyərini təhlil edir. Dəyərsizləşmənin baş verdiyinə dəlalət eden hər hansı hal mövcud olarsa, dəyərsizləşmə üzrə zərərin (əgər varsa) həcmini müəyyən etmək üçün aktivin bərpa dəyəri hesablanır. Aktivin fərdi hallarda bərpa dəyərinin hesablamaq mümkün olmazsa, Cəmiyyət belə aktivin aid olduğu gəlir gətirən aktivlər qrupunun bərpa dəyərini müəyyən edir. Aktivin yerləşdirilməsinə müvafiq və ardıcıllığı gözlənilən əsaslar müəyyən edildiyi hallarda, korporativ aktivlər, həmçinin fərdi gəlir gətirən aktivlər qrupunda yerləşdirilə bilər yaxud, başqa cür, müvafiq qaydada və ardıcıllığı gözlənilməklə yerləşdirmə əsasları müəyyən edilmiş ən kiçik gəlir gətirən aktivlər qrupunda yer alır.

Qeyri-müəyyən istifadə müddəti olan və istifadə üçün hazır olmayan qeyri-maddi aktivlər ən azı ildə bir dəfə və ya dəyərsizləşməəlaməti olduqda dəyərsizləşmə üzrə yoxlamadan keçməlidir.

Bərpa dəyəri ədalətli dəyərdən satış və istifadə dəyərlərini çıxıldıqdan sonra alınan daha yüksək məbləğdir. İstismar dəyərini qiymətləndirərkən təxmin edilən gələcək dövrlərin pul axınları pulun vaxt üzrə dəyərinin və gələcək pul axınları iləbağlı təxminlərə düzəliş edilməmiş aktiv üçün səciyyəvi olan risklərin hazırki bazar qiymətləndirilməsini özündəəks etdirən vergiyə qədərki diskont dərəcəsindən istifadə etməklə cari dəyərinə qədər diskontlaşdırır.

Aktivin (yaxud gəlir gətirən aktivlər qrupunun) bərpa dəyərinin onun balans dəyərindən az olduğu hesablanarsa, belə aktivin (yaxud gəlir gətirən aktivlər qrupunun) balans dəyəri bərpa dəyərinə kimi azaldılır.

Dəyərsizləşmə üzrə zərər sonradan əvəzləşdirilərsə, aktivin (yaxud gəlir gətirən aktivlər qrupunun) balans dəyəri hesablamasına düzəliş verilmiş bərpa dəyərinə qədər artırılır, bu şərtlə ki,artırılmış belə balans dəyəri aktivin (yaxud gəlir gətirən aktivlər qrupunun) dəyərsizləşmə zərərinin tanımadığı keçmiş illərdə müəyyən edilmiş balans dəyərindən artıq olmasın . Dəyərsizləşmə üzrə zərərin bərpası dərhal mənfəət və ya zərər hesabında tanınır.

### Vergiqoyma

Mənfəət vergsisi xərcləri ödənilməli olan cari vergi vətaxirə salınmış vergidən ibarətdir.

### Cari vergi

Ödənilməli olan cari vergi ili üzrə cəlb olunan mənfəət əsasında tutulur. Vergiyə cəlb olunan mənfəət digər illərdə vergiyə cəlb olunmuş yaxud gəlirdən çıxılan və heç vaxt vergiyə cəlb olunmayan yaxud gəlirdən çıxılmayan gəlir və xərc maddələri iləəlaqədar mənfəət və zərər haqqında hesabatda əksini tapmış mənfəətdən fərqlənir. Cəmiyyətin cari vergi ilə bağlı öhdəliyi hesabat dövrünün sonuna qanuni qüvvəyə minmiş və ya hesabat dövrünün sonuna tam hacmdə qüvvəyə minmiş vergi dərəcələrindən istifadə etməklə hesablanır.

### Əməliyyat vergiləri

Azərbaycan Respublikasında Cəmiyyətin fəaliyyəti ilə əlaqədar olaraq hesablanan bir sıra digər vergilər tətbiq edilir. Belə vergilər əməliyyat xərclərinin tərkib hissəsi kimi mənfəət və ya zərər haqqında hesabata daxil edilir.

### Ehtiyyatlar

Ehtiyyatlar Cəmiyyətin keçmişdə baş vermiş hadisənin nəticəsi olaraq hazırda öhdəliyi (hüquqi yaxud konstruktiv) olduqda tanınır; bu zaman cəmiyyətdən öhdəliyin yerinə yetirilməsinin tələb olunacağı ehtimal edilir və öhdəlik məbləği etibarlı şəkildə hesablana bilir.

Ehtiyyatlar kimi tanınan məbləğ öhdəliklə bağlı risk və qeyri-müəyyənlikləri nəzərə almaqla hesabat dövrünün sonunda cari öhdəliyin yerinə yetirilməsi iləəlaqədar tələb olunan məbləğlərin ən düzgün hesablanmasıdır. Ehtiyyat ayırmaları hazırki öhdəliyin yerinə yetirilməsi üçün hesablanmış pul vəsaitləri axınına istinad etməklə ölçülərsə, onun balans dəyəri (pulun vaxt üzrə dəyərinin təsiri əhəmiyyətli olduqda) həmin pul vəsaitlərinin cari dəyərinə bərabər olur.

Ehtiyyatların yerləşdirilməsi tələb olunan müəyyən bütün iqtisadi mənfəətin kənar tərəflər vasitəsilə bəröa ediləcəyi gözlənilirsə, bu vəsaitin qaytarılması və alınacaq belə vəsaitlərin düzgün qiymətləndirilməsi barədə qəti əminlik olduqda alınacaq məbləğ uçotda aktiv kimi tanınır.

### Şərti aktiv öhdəliklər

Şərti öhdəliklər maliyyə vəziyyəti haqqında tanınmır, lakin, hesablaşma üzrə vəsaitlərin azalması ehtimalı olduqda, belə öhdəliklər açıqlanmalıdır. Şərti aktivlər maliyyə vəziyyəti haqqında hesabatda tanınmır, lakin, onlarala bağlı iqtisadi mənfəətin əldə olunacağı ehtimal edildikdə açıqlanmalıdır.

### Xarici valyutalar

Cəmiyyətin maliyyə hesabatlarə hazırlanarkən, onun əməliyyat valyutasından başqa digər valyuta (xarici valyutalar) ilə aparılan əməliyyatlar beləəməliyyatların apardığı tarixdə üstünlük təşkil edən mübadilə məzənnələri ilə qeydə alınır. Hər hesabat dövrünün sonunda, xarici valyuta ilə ifadə olunmuş pul

vəsaitlərinin valyuta mövqeyi ədalətli dəyərin müəyyən olunduğu tarixdə üstünlük təşkil edən məzənnə ilə təkrar qiymətləndirilir.

Xarici valyutada ədalətli dəyər ilə uçota alınmış qeyri-pul vəsaitlərinin valyuta mövqeyi ədalətli dəyərin müəyyənləşdirdiyi tarixdə üstünlük təşkil edən məzənnə təkrar qiymətləndirilir.

Monetar maddələi üzrə valyuta fərqləri aşağıdaki hallar istisna olmaqla mənfəət və ya zərər hesabatında baş verdiyi dövrdə tanınır:

- Gələcəkdə istifadə üçün nəzərdə tutulmuş başa çatdırılmamış aktivlərlə əlaqəli xarici valyuta ilə ifadə olunmuş borclar üzrə məzənnə fərqləri, xarici valyuta ilə ifadə olunmuş borclar üzrə faiz xərclərinə düzəliş kimi hesab olunduqda aktivlərin dəyərinə daxil edilir.
- Müəyyən xarici valyuta risklərinin qarşısını almaq üçün aparılan əməliyyatlar üzrə valyuta fərqləri (aşağıdakı hecinqin uçotu qaydalarına baxın) və hesablaşmanın olmadığı və olacağı güman edilməyən xarici əməliyyatlarda xalis investisiya formalaşdırır), hansı ki, ilk əvvəl digər gəlirlərdə göstərilir və daha sonra səhmdar kapitalından pul vəsaitlərinin mənfəət və zərər hesabına təsnif edilir.

Maliyyə hesabatlarının təqdim edilməsi məqsədilə ilə Cəmiyyətin xarici əməliyyatlarının aktiv və öhdəlikləri hər hesabat müddətinin sonunda qüvvədə olan mübadilə məzənnələri əsasında AZN-ə çevrilir, istisna hallarda valyuta mübadilə məzənnələri həmin müddət ərzində əhəmiyyətli dərəcədə tərəddüd etdiyi halda sövdəşmələrin tarixində qüvvədə olan valyuta mübadilə məzənnələri istifadə olunur. Hər hansı valyuta mübadilə fərqləri meydana gəldiyi halda digər məcmu gəlirlər haqqında hesabatda tanınır və kapitalda toplanır.

Maliyyə hesabatlarının hazırlanmasında Cəmiyyətin ilin sonunda tətbiq etdiyi valyuta mübadiləsi məzənnələr aşağıdakı kimi olmuşdur:

| | **31 dekabr 2017** | **31 dekabr 2016** |
|---|---|---|
| **1 ABŞ dolları 1 AZN** | **1.7001** | **1.7707** |
| **1 Avro 1 AZN** | **2.0445** | **1.8644** |

### Girov

Cəmiyyət məqsədə müvafiq hesab edildiyi hallarda müştərilərin öhdəlikləri müqabilində girov alır. Girov adətən müştəri əmlakının həbs olunmasını nəzərdə tutur və Cəmiyyətə müştərinin həm cari həm də gələcək öhdəlikləri ilə əlaqədar əmlaka qarşı iddianın irəli sürülməsi üçün əsas yaradır.

## 3. MÜHÜM MÜHASİBAT UÇOTU MÜHAKİMƏLƏRİ VƏ TƏXMİNLƏRLƏ BAĞLI QEYRİ-MÜƏYYƏNLİYİN ƏSAS MƏNBƏLƏRİ

Cəmiyyət növbəti ildə aktivlərin və öhdəliklərin hesabat olunan məbləğlərinə təsir edəcək qiymətləndirmələr aparır və fərziyyələr irəl sürür. Qiymətləndirmələr və mühakimələr davamlı qaydada aparılır, rəhbərliyin təcrübəsinə və digər amillərə, habelə şəraitə uyğun hesab olunan gələcək hadisələrlə bağlı gözləntilərə əsaslanır. Rəhbərlik mühasibat uçotu qaydalarının tətbiqi prosesində qiymətləndirmə tələb olunan mühakimələrdən əlavə bəzi qərarlar və növbəti ildə aktiv və öhdəliklərin balans dəyərində mühüm düzəlişlərə səbəb ola biləcək qiymətləndirmələr aşağıdakılardan ibarətdir:

**Kreditlərin və debitor borclarının dəyərsizləşməsi**

Cəmiyyət dəyərsizləşməni müəyyən etmək məqsədilə kreditləri və debitor borclarını mütamadi olaraq nəzərdən keçirir. Cəmiyyətin kreditlər və debitor borcları portfelində baş vermiş dəyərsizləşmə üzrə zərərin tanınması üçün kreditlərin dəyərsizləşməsi üzrə ehtiyyatlar yaradılır. Cəmiyyətin kredit və debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyatlara dair mühasibat təxminlərini qeyri-müəyyən hesab edir, ona görə ki, onlar gələcək defolt dərəcələri barədə fərziyələrin, eləcə də dəyərsizləşmiş kreditlər və debitor borcları ilə bağlı potensial itkilərin qiymətləndirilməsinin yaxın keçmişdəki fəaliyyət nəticələrinəəsaslanması səbəbindən vaxtaşırı olaraq dəyişikliklərə çox məruz qalır və Cəmiyyətin hesablandığı zərər ilə faktiki zərər arasında hər hansı əhəmiyyətli fərq müqabilində ondan gələcək dövrlərdə maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir göstərə biləcək ehtiyatların qeyd edilməsi tələb oluna bilər.

Borcalanlar maliyyə çətinlikləri üzləşdikdə və belə borcalanlara dair tarixi məlumat mənbələri az sayda olduqda, Cəmiyyət hər hansı dəyərsizləşmə üzrə zərərin məbləğini hesablamaq üçün rəhbərliyin mülahizələrindən istifadə edir. Eynilə, Cəmiyyət keçmiş fəaliyyət nəticələri, keçmiş müştəri davranışı, qrup daxilində borcalanın ödəniş etmə vəziyyətindəki mənfi dəyişikləri göstərən müşahidə oluna bilən məlumatları, eləcə də qrup daxilində aktiv üzrə öhdəliyin yerinə yetirilməməsi halları ilə əlaqəli olan ölkə və yerli iqtisadi şəraitlərə əsaslanmaqla gələcək pul axınlarındakı dəyişiklikləri hesablayır. Rəhbərlik kredit riski ilə səciyyələnən aktivlər halında avvəllər baş vermiş zərər üzrə keçmiş təcrübəyə və kreditlər qrupunda olduğu kimi dəyərsizləşməyə dəlalət edən obyektiv sübutlara əsaslanan ehtimallardan istifadə edir. Cəmiyyət tarixi məlumatlarda əksini tapmamış hazırki vəziyyətlərin qeyd edilməsi məqsədilə kreditlər qrupu üzrə müşahidə oluna bilən məlumatlara düzəliş etmək üçün rəhbərliyin mühakimələrdən istifadə edir.

Maliyyə hesabatlarında maliyyə aktivlərinin dəyərsizləşməsi üzrə ehtiyyat müddəasının daxil edilməsi mövcud iqtisadi və siyasi şəraitlərəəsasən müəyyən olunmuşdur. Cəmiyyət Azərbaycan Respublikasında belə şəraitlərdə hansı dəyişikliklərin baş verecəyini və belə dəyişikliklərin gələcək dövrlərdə maliyyə aktivlərinin dəyərsizləşməsi üzrə ehtiyyatlara necə təsir göstərəcəyini qabaqcadan söyləmək iqtidarında deyil.

## 4. YENİ VƏ DÜZƏLİŞ EDİLMİŞ MALİYYƏ HESABATLARININ BEYNƏLXALQ STANDARTLARININ (MHBS) TƏTBİQİ

Maliyyə hesabatlarında hesabat olunan məbləğlərə təsir edən MHBS-lərə düzəlişlər. Cari ildə hazirki maliyyə hesabatlarında göstərilən məbləğlərə təsir edən aşağıdakı yeni və düzəliş edilmiş Standartlar və Şərhlər qəbul edilmişdir.

- MHBS 10, MHBS 12 VƏ MUBS 27-yə düzəlişlər- İnvestisiya müəssələri
- MUBS 32-yə düzəlişlər-Maliyyə Aktivlərinin və Maliyyə öhdəliklərinin əvəzləşdirilməsi
- MUBS 36-ya düzəlişlər- Qeyri –maliyyə aktivləri üçün bərpa dəyəri ilə bağlı açıqlamalar
- MUBS 39-a düzəlişlər- Törəmə maliyyə alətlərinin ötürülməsi və hecinq uçotunun dəvam etdirilməsi
- MHBSKŞ 21- İcbari ödənişlər

Bu düzəlişlər və şərhlər Cəmiyyətin maliyyə hesabatlarına heç bir təsir göstərməmişdir. Buraxılmış, lakin hələ qüvvəyə minməmiş yeni və düzəliş edilməmiş MHBS-lər Cəmiyyət buraxılmış, lakin hələ qüvvəyə minməmiş aşağıdakı yeni və düzəliş edilmiş MHBS –ləri tətbiq etməmişdir:

- MUBS 19-a düzəlişlər- Müəyyən olunmuş müavinat planları: İşçilər tərəfindən ödəmələr
- 2010-2012-ci illəri əhatə edən dövr üzrə MHBS-lərə illik düzəlişlər
- 2011-2013-cü illəri əhatə edən dövr üzrə MHBS-lərə illik düzəlişlər

- 2012-2014-cü illəri əhatə edən dövr üzrə illik düzəlişlər
- MHBS 14 Tariflərin tənzimlənməsi üzrə təxirə salınmış hesablar
- MUBS 16 və MUBS 38-ə düzəlişlər- Məqbul Köhnəlçə və Amortizasiya Metodlarının Aydınlaşdırılması
- MHBS 11-ə düzəlişlər-BirgəƏməliyyatlarda İştirak Paylarının Alışının uçotu
- MHBS 10 və MUBS 28-ə düzəlişlər- İnvestor ilə Asılı müəssə və ya Birgə Müəssisə arasındakı Aktivlərin Satışı və ya Ötürülməsi
- MHBS 15 Müştərilərlə Müqavilə üzrə Gəlirlər
- MHBS 9 Maliyyə Alətləri

MHBS 9 Maliyyə Alətləri, 2009-cu ilin noyabr ayında buraxılmış MHBS 9 maliyyə aktivlərinin təsnifatı və qiymətləndirilməsi üçün yeni tələbləri təqdim edir. Maliyyə öhdəliklərinin təsnifatı və ölçülməsi, habelə tanınmasının dayandırılması ilə bağlı yeni tələblərin daxil edilməsi məqsədilə 2010-cu ilin oktyabrında ,ümumi hecinquçotu ilə bağlı yeni tələblərin daxil edilməsi üçün 2013-cü ilin noyabrında MHBS 9-a düzəliş olunmuşdur. 2014-cü ilin iyul ayında BMUSŞ əsasən maliyyə aktivləri üçün dəyərsizləşmə tələblərini, habelə təsnifləşdirmə və ölçülmə tələbləri ilə bağlı məhdud düzəlişləri tətbiq edən MHBS 9-un yekun versiyası hazırlanmışdır. MHBS 9-un məqsədi Maliyyə Alətləri Tanıma və Ölçülmə adlı 39-u əvəz etməkdən ibarətdir.

**Tanınma və ölçülmə**

**MHBS 9 üzrə əsas tələblər aşağıdakılardan ibarətdir:**

- Maliyyə aktivlərinin təsnifləşdirilməsi və ölçülməsi. Maliyyə aktivləri onların saxlandıqları biznes modelinə və müqavilə üzrə pul daxilolmalarının yığılması məqsədini daşıyan biznes modeli çərçivəsində saxlanılan və müqavilə üzrə pul daxilolmaları yalnız əsas borc məbləği, eləcə də ödənilməmiş əsas borc məbləği üzrə faizlərin ödənilməsindən ibarət borc alətləri adətən ilkin tanınmadan sonra amortizasiya edilmiş dəyərlə ölçülür. MHBS 9-un 2014-cü il versiyası müqavilə üzrə pul vəsaitlərinin toplanması və maliyyə aktivlərinin satılmasından,eləcə də ilkin tanınmadan sonra digər məcmu gəlirlər hesabatında ədalətli dəyərlə tanınan belə maliyyə aktivləri üzrə müəyyən olunmuş tarixlərdə qalıq borclar üzrəəsas borc və faiz məbləğlərinin toplanmasından ibarət olan biznes modeli çərçivəsində borc alətləri üçün "digər məcmu gəlirlər üzrəədalətli dəyər" kateqoriyasını təqdim edir. Bütün digər borc və kapital investisiyalarıədalətli dəyərlə ölçülür. Bundan başqa, Maliyyə alətləri haqqında MHBS 9-a əsasən müəssisələr yalnız dividend üzrə gəliri mənfəət və ya zərər hesablarında tanımaq şərtilə kapital investisiyasının (ticarət üçün saxlanılmayan) ədalətli dəyərində sonrakı dəyişikliklərin digər məcmu gəlirlər haqqında hesabatda təqdim edilməsi ilə bağlı yekun seçim ede bilərlər.
- Maliyyə öhdəliklərinin təsnifləşdirilməsi və ölçülməsi. Maliyyə öhdəlikləri MUBS 39-da olduğu kimi eyni tərzdə təsnifləşdirilir, lakin müəssisənin öz kredit riskinin ölçülməsinə tətbiq olunan tələblər üzrə fərqlər mövcuddur. MHBS 9 maliyyə öhdəliyinin kredit riskindəki dəyişikliklərə şamil olunan belə öhdəliyin ədalətli dəyərində dəyişiklik məbləğinin (öhdəliklərin kredit riskində dəyişikliklərin təsirinin digər məcmu gəlirlər haqqında hesabatda tanınması mənfəət və ya zərər üzrə uçot uyğunsuzluğu əmələ gətirmiyənədək) digər məcmu gəlirlərdə tanınmasını tələb edir. Maliyyə öhdəliyinin kredit riskinə şamil olunan ədalətli dəyərdə dəyişikliklər daha sonra mənfəət və ya zərər üzrə yenidən təsnifləşdirilir.
- Dəyərsizləşmə MHBS 9-un 2014-cü il versiyası maliyyə aktivlərinin dəyərsizləşməsi ilə bağlı MUBS 39-dakı "çəkilmiş kredit zərərləri modeli " nin əksinə olaraq " gözlənilən kredit zərərləri modeli" ni təqdim edir. Gözlənilən kredit zərərləri modeli kredit riskindəki dəyişiklikləri əks etdirmək üçün müəssisə tərəfindən belə kredit zərərlərinin və onlarla bağlı dəyişikliklərin ilkin

tanınma dövründən başlayaraq hər hesabat tarixində uçota alınmasını tələb edir. Digər sözlərlə desək, kredit hadisəsinin kredit zərəri tanınmamışdan əvvəl baş verməsi artıq vacib deyil.

- Hecinqin uçotu. Maliyyə və qeyri-maliyyə risklərinin hecinqi zamanı müəssisələr tərəfindən riskin idarə edilməsi fəaliyyətlərinin yerinə yetirilmə üsullarını açıqlayan yeni hecinq uçotu modeli təklif edir. MHBS 9-a əsasən hecinq uçotuna uyğun olan əməliyyatların növləri, xüsusilə hecinq alətlərinə aid olan alətlərin növlərinin artırılması və hecinq uçotunun tətbiq olunduğu qeyri-maliyyə alətlərinin risk kompenentlərinin növləri ilə bağlı daha geniş imkanlar verilir. Bundan əlavə, effektivlik testi öyrənilmiş və "iqtisadi münasibətlər"in əsasları iləəvəzlənmişdir. Həmçinin, keçmiş dövrlərə şamil olunmaqla qiymətləndirmə artıq tələb edilmir. Müəssisədə riskin idarə edilməsi fəaliyyətlərinə dair güclü açıqlama tələbləri tətbiq olunmuşdur.
- Tanınmanın dayandırılması. Maliyyə aktivlərinin və öhdəliklərinin tanınmasının dayandırılması üçün tələblər MUBS 39-dan köçürülmüşdür.

Bu standartlar daha erkən tətbiqinə icazə verilməklə 1 yanvar 2018-ci il tarixindən qüvvəyə minir. MHBS 9-un tətbiqi ilə bağlı seçilən yanaşmadan asılı olaraq keçid 1 tarixdən və ya müxtəlif tələblərin ilkin tətbiqi üçün isə bir neçə tarixdən ibarət ola bilər.

Cəmiyyətin rəhbərliyi gələcəkdə MHBS 9-un tətbiqinin maliyyə aktivlərinin və maliyyə öhdəliklərinin hesabat olunan məbləğlərinəəhəmiyyətli dərəcədə təsir ede biləcəyini düşünür. Lakin ətraflı təhlil başa çatmayanadək MHBS 9-un təsiri ilə bağlı müvafiq təxminlərin verilməsi mümkün deyil.

## 5.XALİS FAİZ GƏLİRLƏRİ

| | **31 dekabr 2017-ci il tarixinə bitən il üzrə** | **31 dekabr 2016-cı il tarixinə bitən il üzrə** |
|---|---|---|
| Faiz gəlirləri aşağıdakılardan ibarətdir: | | |
| Amortizasiya olunmuş dəyərlə qeydə alınan maliyyə aktivləri üzrə faiz gəliri: | | |
| Dəyərsizləşmiş maliyyə aktivləri üzrə faiz gəliri | - | - |
| Dəyərsizləşməmiş maliyyə aktivləri üzrə faiz gəliri: | - | - |
| **Cəmi faiz gəliri** | | |
| Amortizasiya olunmuş dəyərdə qeydə alınan maliyyə aktivləri üzrə faiz gəliri aşağıdakılardan ibarətdir: | | |
| Müştərilərə verilmiş kreditlər üzrə faiz | 780 750.80 | 813 054.60 |
| Banklardakı müddətli depozitlər üzrə faiz | | |
| **Cəmi amortizasiya olunmuş maliyyə aktivləri üzrə faiz gəliri** | **780 750.80** | **813 054.60** |

**Faiz xərcləri aşağıdakılardan ibarətdir:**

| | | |
|---|---|---|
| Amortizasiya olunmuş dəyərdə qeydə alınan maliyyə öhdəlikləri üzrə faiz gəliri aşağıdakılardan ibarətdir: | | |
| Digər borc alınmış vəsaitlər üzrə faiz | (112 990.47) | (178 739.37) |
| Subordinasiyalı borclar üzrə faiz | | |
| **Cəmi amortizasiya olunmuş dəyərdə qeydə alınan maliyyə öhdəlikləri üzrə faiz xərci** | **(112 990.47)** | **(178 739.37)** |

## 6.DƏYƏRSİZLƏŞMƏ ZƏRƏRLƏRİÜÇÜN EHTİYYAT

Faiz hesablanan aktivlər üzrə dəyərsizləşmə zərərləri üçün aşağıdakı kimi olmuşdur:

| | | |
|---|---|---|
| **1 yanvar 2017-ci il** | | |
| Qeydə alınmmış əlavə ehtiyyatlar | | |
| Aktivlərin silinməsi | | |
| Əvvəllər silinmiş aktivlərin bərpası | | |

## 7. MƏNFƏƏT VƏ YA ZƏRƏR HESABLARINDA ƏDALƏTLİ DƏYƏRLƏ QEYDƏ ALINMIŞ MALİYYƏ AKTİVLƏRİ VƏ ÖHDƏLİKLƏRİÜZRƏ XALİS ZƏRƏR

Mənfəət və zərər hesablarında ədalətli dəyərlə qeydə alınmış maliyyə aktivləri və öhdəlikləri üzrə xalis zərər aşağıdakılardan ibarətdir:

| | **31 dekabr 2017-ci il tarixinə bitən il** | **31 dekabr 2016-cı il tarixinə bitən il** |
|---|---|---|
| Mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə müəyyən olunmuş maliyyə öhdəlikləri ilə əməliyyatları üzrə xalis zərər | | |
| Cəmi mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə qeyd olunan maliyyə aktivləri və öhdəlikləri üzrə cəmi xalis zərər | | |
| **31 dekabr 2017-ci il** | | |

## 8. İNZİBATİ VƏ DİGƏR ƏMƏLİYYAT XƏRCLƏRİ

İnzibati və digər əməliyyat xərcləri aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-ci il |
|---|---|---|
| Kompyuteravadanlıqlarınıntəmirvəsaxlanmaxərcləri | 4 728.00 | 3 533.00 |
| Nəqliyyatvasitələrinintəmirvəsaxlanmaxərcləri | 759.46 | 1 440.00 |
| Digərəsasvəsaitlərintəmirvəsaxlanmaxərcləri | - | 300.00 |
| Avadanlıqların dəstəklənməsi üzrə xərclər | 1 081.00 | 2 509.67 |
| Proqramtəminatlarınındəstəklənməsi üzrəxərclər | 9080.00 | 6 608.00 |
| Digər dəstəklənmə xərcləri | 25 635.00 | |
| Nəqliyyatvasitələri üzrəistismarxərcləri | 5 816.00 | 2 932.00 |
| Əmlakın sığortasıüzrə xərclər | 300.00 | |
| Mühafizə xərcləri | 1 674.82 | 1 940.00 |
| Enerji və qızdırıcı sistemlər üzrə xərclər | 2 414.39 | 1 569.65 |
| Kommunal xidmətlər üzrə xərclər | 3 795.94 | 1 693.08 |
| Rabitə xərcləri | 1 959.07 | 2 362.22 |
| Mal-materialların alınması üzrə xərclər | 2 381.04 | 4 940.61 |
| Reklam xərcləri | 6 590.00 | 34 877.00 |
| Məsləhət, auditvə digərpeşəkarxidmətlər üzrə xərclər | 5 450.00 | 3 500.00 |
| Hüquq məsrəfləri və məhkəmə xərcləri | 28 361.64 | 607.00 |
| Vergi xərcləri | 819.71 | 530.48 |
| Ezamiyyə xərcləri | 1 330.05 | |
| İşçiləriləbağlı digərxərcləri | 679.75 | 546.40 |
| Digər xidmətlər üzrə xərclər | 3728.36 | 20 703.00 |
| Sair xərclər | 17 368.90 | 51 658.61 |
| **Cəmi inzibati və digər əməliyyat xərcləri** | **123 953.13** | **142 250.72** |

## 9. MƏNFƏƏT VERGİSİ

Cəmiyyət ödəniləcək cari mənfəət vergisi, eləcə də aktiv və öhdəliklər üzrə vergi bazalarını onun fəaliyyət göstərdiyi ölkələrin Azərbaycan Respublikasının vergi qanunvericiliyinə əsasən hesablayır və uçotda əks etdirir ki, buda MHBS-dan fərqli ola bilər.

Təşkilat bəzi xərclər vergiyə cəlb olunmadığından və bəzi gəlirlər vergi məqsədləri üçün vergidən azad olunduğundan daim vergi xərcləri ilə üzləşir.

Təxirə salınmış vergilər maliyyə hesabatları məqsədləri üçün uçota alınan aktiv və öhdəliklərin balans dəyəri ilə verginin hesablanması məqsədilə istifadə edilən məbləğlər arasındakı müvəqqəti fərqlər üzrə xalis vergi təsirini əks etdirir.31 dekabr 2017-ci və 2016-cı il tarixlərinə olan müvəqqəti fərqlər əsasən gəlir və xərclərin tanınması üzrə müxtəlif metodlar, zaman müddətləri, eləcə də müəyyən aktivlər üzrə vergi-uçotəsaslı fərqlərdən yaranan müvvəqəti fərqlər iləəlaqədardır.

Aşağıdakı məbləğlərin üzləşdirilməsində tətbiq edilən vergi dərəcəsi Azərbaycan Respublikasında vergi qanunvericiliyinə əsasən (müəyyən edildiyi kimi) hüquqi şəxslər tərəfindən vergiyə cəlb olunanan mənfəət üzrə ödəniləcək 20%-lik mənfəət vergisi dərəcəsidir.

31 dekabr 2017-ci və 2016-cı il tarixlərinə müvəqqəti fərqlər aşağıdakılaradan ibarərdir:

| | 31 dekabr 2017-ci il tarixinə bitən il üzrə | 31 dekabr 2016-cı il tarixinə bitən il üzrə |
|---|---|---|
| **Aktivlər və öhdəliklər:** | | |
| Müştərilərə verilmiş kreditlər | 2 891 818.59 | 3 860 012.94 |
| Digər öhdəliklər | 20 032.19 | - |
| Kreditlərin dəyərsizləşməsi | (174 796.61) | (111 470.46) |
| Digər aktivlər | 773.72 | |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlər | 155 251.83 | 112 758.18 |
| Digər borc alınmış vəsaitlər | 799 293.18 | 2 882 555.56 |
| Xalis təxirə salınmış vergi aktivi | | - |

31 dekabr 2017-ci və 2016-cı il tarixlərinə qüvvədə olan vergi dərəcəsinin üzləşdirilməsi aşağıdakı kimi olmuşdur:

| | 31 dekabr 2017-cı il tarixinə bitən il üzrə | 31 dekabr 2016-ci il tarixinə bitən il üzrə |
|---|---|---|
| Mənfəət vergisindən əvvəl mənfəət | 125 717.14 | 111 728.86 |
| **Mənfəət vergisi xərci:** | | |
| Cari mənfəət vergisi xərci | (25 960.81) | (22 345.77) |
| Təxirə salınmış mənfəət vergisi | | - |
| Mənfəət vergisi xərci | (25 960.81) | (22 345.77) |

**Təxirə salınmış mənfəət vergisi aktivləri**

| | 31 dekabr 2017-ci il tarixinə bitən il üzrə | 31 dekabr 2016-cı il tarixinə bitən il üzrə |
|---|---|---|
| 1 yanvar tarixinə təxirə salınmış vergi aktivləri | - | - |
| Mənfəət və ya zərər hesablarında tanınan təxirə salınmış mənfəət vergisi qalıqlarında dəyişiklik | - | - |
| **31 dekabr tarixinə təxirə salınmış vergi aktivləri** | - | - |

## 10. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

| | 31 dekabr 2017-ci il tarixinə bitən il üzrə | 31 dekabr 2016-ci il tarixinə bitən il üzrə |
|---|---|---|
| Kassada olan nağd pul vəsaitləri | 63 595.55 | 101 151.72 |
| Yolda olan pul vəsaitlərti | | |
| Bank hesablarında pul vəsaitləri | 6 012.33 | 5 018.82 |
| **CƏMİ PUL VƏSAİTLƏRİ** | **69 607.88** | **106 170.54** |
| Bank hesablarında pul vəsaitlərindən: | | |
| • Milli valyutada bank hesabları | 5 522.49 | 4 507.24 |
| • Xarici valyutalarda bank hesabları | 489.84 | 511.58 |

## 11.BANKLARDAKI MÜDDƏTLİ DEPOZİTLƏR

Banklardakı müddətli depozitlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2017cı il tarixinə bitən il üzrə | 31 dekabr 2016-ci il tarixinə bitən il üzrə |
|---|---|---|
| Müddətli depozitlər | - | - |
| **Cəmi banklardakı müddətli depozitlər** | - | - |

## 12. MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR ÜZRƏ DEBİTOR BORC

Müştərilərə verilmiş kreditlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2017-cı il tarixinə bitən il üzrə | 31 dekabr 2016-ci il tarixinə bitən il üzrə |
|---|---|---|
| Cəmi müştərilərə verilmiş kreditlər | 2 993 340.25 | 3 908 576.86 |
| Cəmi müştərilərə verilmiş kreditlər üzrə hesablanmış faiz | 73 274.95 | 62 906.54 |
| Çıxılsın: dəyərsizləşmə zərəri üçün ehtiyat | (174 796.61) | (111 470.46) |
| **Müştərilərə verilmiş kreditlər üzrə debitor borc** | **2 891 818.59** | **3 860 012.94** |

## 13. ƏSAS VƏSAİTLƏR

Əmlak, avadanlıq və qeyri-maddi aktivlər aşağıdakılardan ibarətdir:

| | Binalar, qurğular | Maşın və avadanlıq | Nəqliyyat vasitələri | Digər | Cəmi |
|---|---|---|---|---|---|
| 1 yanvar 2016-cı il il tarixinə ilkin dəyər | | | | 48 576.09 | 48 576.09 |
| Yığılmış amortizasiya | | | | (7 330.44) | (7 330.44) |
| **1 yanvar 2016-cı il tarixinə balans dəyəri** | - | - | - | **41 245.65** | **41 245.65** |
| Daxilolmalar | | 12 685.00 | 50 000.00 | 18 924.22 | 81 609.22 |
| Xaricolmalar | | | | | |
| Amortizasiya ayırmaları | | (2 266.49) | (2 092.09) | (5 738.11) | (10 096.69) |
| Xaricolmalar üzrə amortizasiya | | | | | |
| 31 dekabr 2016-cı il il tarixinə ilkin dəyər | | 12 685.00 | 50 000.00 | 67 500.31 | 130 185.31 |
| Yığılmış amortizasiya | | (2 266.49) | (2 092.09) | (13 068.55) | (17 427.13) |
| **31 dekabr 2016-cı il il tarixinə balans dəyəri** | - | **10 418.51** | **47 907.91** | **54 431.76** | **112 758.18** |
| Daxilolmalar | | 39064.28 | 21 500.00 | 18 650.00 | 79 214.28 |
| Xaricolmalar | | | | | |
| Amortizasiya ayırmaları | | (5604.09) | (13 246.95) | (17 869.59) | (36 720.63) |
| Xaricolmalar üzrə amortizasiya | | | | | |
| 31 dekabr 2017-ci il tarixinə ilkin dəyər | | 51749.28 | 71 500.00 | 86 150.31 | 209 399.59 |
| Yığılmış amortizasiya | | (7 870.58) | (15 339.04) | (30 938.14) | (54 147.76) |
| **31 dekabr 2017-c il tarixinə balans dəyəri** | - | **43 878.70** | **56 160.96** | **55 212.17** | **155 251.83** |

## 14. QEYRİ-MADDİ AKTİVLƏR

| | İstifadə müddəti məlum olmayan | Cəmi |
|---|---|---|
| 1 yanvar 2016-cı il tarixinə ilkin dəyər | 18 348.10 | 18 348.10 |
| Yığılmış amortizasiya | - 1 978.18 | - 1 978.18 |
| **1 yanvar 2016-cı il tarixinə balans dəyəri** | **16 369.92** | **16 369.92** |
| Daxilolmalar | | |
| Xaricolmalar | | |
| Amortizasiya ayırmaları | - 1 564.02 | - 1 564.02 |
| Xaricolmalar üzrə yığılmış amortizasiya | | |
| 31 dekabr 2016-cı il tarixinə ilkin dəyər | 18 348.10 | 18 348.10 |
| Yığılmış amortizasiya | - 3 542.20 | - 3 542.20 |
| **31 dekabr 2016-cı il tarixinə balans dəyəri** | **14 805.90** | **14 805.90** |
| Daxilolmalar | | |
| Xaricolmalar | | |
| Amortizasiya ayırmaları | - 1 414.61 | - 1 414.61 |
| Xaricolmalar üzrə yığılmış amortizasiya | | |
| 31 dekabr 2017-ci il tarixinə ilkin dəyər | 18 348.10 | 18 348.10 |
| Yığılmış amortizasiya | - 4 956.81 | - 4 956.81 |
| **31 dekabr 2017-ci il tarixinə balans dəyəri** | **13 391.29** | **13 391.29** |

## 15. DİGƏR BORC ALINMIŞ VƏSAİTLƏR

**Digər borc alınmış vəsaitlər aşağıdakılardan ibarətdir:**

| | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|
| Beynəlxalq maliyyə institularından alınmış kreditlər | | - |
| Beynəlxalq inkişaf üçün maliyyə institutlarından (BİMİ) alınmış kreditlər | | - |
| Yerli maliyyə institutlarından alınmış kreditlər | | |
| Şirkərlərarası kreditlər | | |
| Banklardan kredit | 399 293.18 | 2 882 555.56 |
| Buraxılmış borc qiymətili kağızları | 400 000.00 | |
| **Cəmi digər borc alınmış vəsaitlər** | **799 293.18** | **2 882 555.56** |

Cəmiyyət yuxarıda sadalanan bir sıra banklardan və maliyyə institutlarından alınmış borclarla əlaqədar müəyyən şərtlərini yerinə yetirmək öhdəliyi daşıyır. Bu şərtlə razılaşdırılmış əmsallar, borcun kapitala nisbəti əmsalı və müxtəlif maliyyə fəaliyyəti ilə bağlı digər əmsallar daxildir.

31 dekabr 2017-ci il tarixinə müddətli borc öhdəliklərinin cəmi 799293.18AZN təşkil etmişdir. Müqavilələrə əsasən maliyyə şərtləri pozulduqda vaxtı çatmış borclar və ya tələb əsasında ödənilməli vəsaitlər üçün ehtiyat yaradılmalıdır.

## 16. DİGƏR ÖHDƏLİKLƏR

| | 31 dekabr 2017-ci il | 31 dekabr 2016 cı il |
|---|---|---|
| Rezident banklardan alınmış uzunmüddətli kreditlər üzrə hesablanmış ödəniləcək faizlər | 14 450.68 | - |
| Buraxılmış borc qiymətili kağızlar üzrə ödəlinəcək faizlər | 5 400.00 | - |
| Digər öhdəliklər | 181.51 | 3 256.65 |
| **Cəmi digər öhdəliklər** | **20 032.19** | **3 256.65** |

## 17. KAPİTAL RİSKİNİN İDARƏEDİLMƏSİ

Cəmiyyyət borc və kapital balansının optimallaşdıraraq səhmdarların gəlirlərini artırmaqla yanaşı onun fasiləsizlik prinsipi əsasında fəaliyyət göstərə biləcəyini təmin etmək məqsədilə öz kapitalının idarə edilməsini həyata keçirir.

Hazırda Azərbaycan Respublikasının Mərkəzi Bankı bank olmayan kredit təşkilatları üçün heç bir kapital tələbləri qoymamışdır. Cəmiyyətin kapitalının idarə edilməsi ilə bağlı rəhbərliyin aşağıdakı məqsədləri vardır: Cəmiyyətin fasiləsiz fəaliyyətinin təmin edilməsi habelə kreditorların və investorların maliyyə şərtlərini yerinə yetirmək məqsədilə vəsaitlərin saxlanılması. Bu Cəmiyyətin Direktoru və mühasib (nəzarət şöbə rəisi) tərəfindən yoxlanılaraq imzalanmış müvafiq hesablamaları əks etdirən aylıq hesabatlar əsasında planlaşdırılmış və faktiki məlumat ilə bağlı gündəlik icra olunur.

## 18. RİSKİN İDARƏ EDİLMƏSİ QAYDALARI

Riskin idarə edilməsi Cəmiyyətin bankçılıq fəaliyyəti üçün mühüm hesab edilir və Cəmiyyətin əməliyyatlarının əsas hissəsini təşkil edir. Cəmiyyətin əməliyyatlarına xas olan əsas risklər aşağıdakılarla bağlıdır:

- Kredit riskləri;
- Likvidlik riski;
- Bazar riski

Cəmiyyət effektiv və səmərəli riskin idarəedilməsi prosesinin tətbiqinin önəmli olması faktını qəbul edir. Buna nail olmaq üçün Cəmiyyət riskin idarəedilməsi çərçivəsini yaratmışdır ki,bunun əsas məqsədi Cəmiyyəti risklərdən qorumaqdan və Cəmiyyət qarşısında qoyulmuş fəaliyyət məqsədlərinə nail olması üçün imkan yaratmaqdan ibararətdir.

**Riskin idarə edilməsi strukturu**

Direktor risklərin müəyyən edilməsi və onlara nəzarət üçün əsas məsul tərəfdir, lakin ayrı-ayrı qurumlar risklərin idarə edilməsinə və onların monitorinqinə görə məsuliyyət daşıyır. Direktor ümumi risklərin idarə edilməsi yanaşmasına və risk strategiyalarının və prinsiplərinin təsdiq edilməsinə cavabdehdir.

Müşahidə şurası Daxili Audit tərəfindən təqdim olunmuş risk məsələləri ilə bağlı hesabatları rüblük əsasda nəzərdən keçirir və aşkar olunmuş məsələlərin həlli üçün rəhbərlik tərəfindən verilən təlimatlara əməl edir. Həmçinin Müşahidə şurası kənar auditorlar tərəfindən aşkar olunmuş məsələlərin müzakirəsində iştirak edir.

Riskin idarə edilməsi sahəsindəəlavə tədbirlərin görülməsi üçün, Cəmiyyət daxilində daima işçi komitələri yardılır:

Müşahidə şurası növbəti 12 ay üçün proqnazlaşdıran likvidlik göstəriciləri hər ay nəzərdən keçirir. Likvidliklə bağlı proqnozlar kreditlərin ödənilməsi səviyyələrinə, gözlənilən maliyyələşdirmə planlarına və digər gözlənilən pul vəsaitlərinin hərəkətlərinə əsaslanır. Müşahidə şurası yeni kreditlərə bağlı qərarlar qəbul edir, banklarla və maliyyə institutları ilə əməliyyatlar üçün açıq valyuta mövqeyini və müqavilə tərəflərinin hədlərini müəyyən edir, kreditorlarla maliyyə şərtlərinə nəzarət edir, aktivlərin və öhdəliklərin

ödəmə müddətləri ilə bağlı məsələləri təhlil edir və fərqlərin aradan qaldırılması üçün Nəzarət şöbəsinə tövsiyələr verir.

Nəzarət şöbəsi Cəmiyyətin aktiv və öhdəliklərinin gündəlik idarə edilməsinə, Cəmiyyət likvidlik mövqeyinin hesablanması və planlaşdırılmasına, pul vəsaitləri və onların ekvivalentlərinin Cəmiyyətin əməliyyat bölmələri arasında yenidən bölüşdürülməsinə cavabdehdir.

Nəzarət şöbəsi Müşahidə şurası tərəfindən müəyyən olunmuş hədlərin və likvidlik əmsallarının tətbiqinə, habelə Müşahidə şurası tərəfindən likvidlik riskinin optimallaşdırılması üçün qəbul edilmiş qərarların həyata keçirilməsinə nəzarət edir. Daxili Audit riskinin idarə edilməsi prosesinin müstəqil yoxlanılmasını həyata keçirir, aşkar olunan çatışmazlıqlar barədə rəhbərliyi məlumatlandırır və riskin idarə edilməsi prosesinin təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyyələr verir.

Riskin idarə edilməsi metodununseçilməsi Cəmiyyətin maliyyə vəziyyətinə mənfi təsir göstərə biləcək risklərin əhəmiyyətliliyini və ya mümkünlüyü müəyyən edən risk göstəricilərindən asılıdır. Cəmiyyət hər bir riski ayrı-ayrılıqda təhlil edərək qiymətləndirməkdən əlavə məcmu riskləri də müəyyən edir. Beləliklə də, aşağıdakı riskin idarə edilməsi metodları tətbiq olunur:

- Ödəmə müddəti ilə bağlı faiz dərəcəsi riski və aktivlərin və öhdəliklərin faiz dərəcəsi üzrə çatışmazlıqların təhlili,
- Xarici və yerli valyuta ilə ödənişlər üzrə likvidlik riski ilə bağlı çatışmazlıqların təhlili; likvidlikəmsallarının təhlili, likvidlik ehtiyatının müəyyən edilməsi;
- Xarici valyuta ilə ödənişlər üzrə valyuta riski ilə bağlı çatışmazlıq təhlili, valyuta mövqeyinin təhlili;
- Kredit portfelinin kredit riski təhlili və kredit riski əmsalları;
- Cəmiyyətin maliyyə vəziyyətinə təsir edən bütün əməliyyatlar üçün əməliyyat riski, tətbiq edilən əməliyyatların tamamlanması üçün lazımi fəaliyyətlərin ayrılmasını (başlanma, icra etmə və nəzarət) təmin edən sistemlər

Riskin ölçülməsi qaydaları Cəmiyyət fəaliyyəti zamanı yarana biləcək ehtimal olunan zərəri əks etdirir. Hər ay ayrı-ayrı risklərin təhlili əsasında Nəzarət şöbəsi risklərin hazırki vəziyyəti vəəsas göstəricilər barədə nəticələr hazırlayır. Xüsusilə də hər ay Müşahidə şurası iclasında faiz dərəcəsi, likvidlik, valyuta və digər bazar riskləri hesabat olunur.

Əməliyyat risklərinin statusu (əməliyyat-texnoloji, hüquqi, strateji, nüfuzla bağlı risk) haqqında məlumat da həmçinin Direktora hesabat olunur. Bu hesabatlar Direktorun keçirilən rüblük iclaslarında təhlil edilir.

**Risk nəticələrinin zəiflədilməsi**

Cəmiyyət risklərin azaldılması üçün başqaları ilə yanaşı aşağıdakı metodlardan istifadə edilir:

- Kredit risklərinin azaldılması üçün zəmanətlərin və girovların alınması;
- Diversifikasiya (müxtəliflik) bir-biri iləəlaqəsi olmayan aktivlərin seçilməsi

## Kredit riski

Cəmiyyət kredit riskinə məruz qalır ki, bu da maliyyə aləti üzrə bir tərəfin öz ğhdəliklərini yerinə yetirə bilməməsi və bunun digər tərəfə maliyyə zərərinin dəyməsi ilə nəticələnməsindən yaranan riskdir. Rəhbərlik kredit riskinin idarə edilməsi öhdəliyini Biznes Kredit şöbəsinə və İstehlak krediti şöbəsinə həvalə etmişdir ki, o da aşağıdakılara cavabdehdir:

- Şöbələrə məsləhətləşməklə kredit siyasətlərinin formalaşdırılması, girov tələbləri, kreditin qiymətləndirilməsi, riskin dərəcələrə bölünməsi və məruzə edilməsi, sənədləşmə və hüquqi prosedurlar habelə hüquqi prosedurlar və qanunla müəyyən olunmuş normativ tələblərəəməl olunması.
- Kredit müqavilələrinin təsdiqi və yenilənməsi üçün təsdiqetmə strukturunun yaradılması. Təsdiqetmə hədləri şöbələrin kredit heyəti üzrə bölüşdürülmüşdür. Daha iri həcmli kredit müqavilələri Biznes Kredit şöbəsinə və İstehlak krediti şöbəsivə ya Direktor tərəfindən, hansı uyğun olarsa, təsdiqetməni tələb edir.
- Kredit riskinin yoxlanılması və qiymətləndirilməsi. Biznes Kredit şöbəsinə və İstehlak krediti şöbəsi aidiyyatı şöbələr tərəfindən müştərilərə təqdim edilməzdən əvvəl müəyyən olunmuş hədləri aşan bütün kredit risklərini qiymətləndirir. Müqavilələrin yenilənməsi və təhlili eyni yoxlama prosesindən keçməlidir.
- Qarşı tərəfin coğrafi və sənaye (kreditlər və avanslar üçün) riskləri cəmləşməsinin təsirini məhdudlaşdırmaq.
- Cəmiyyət üzləşdiyi maliyyə itkisi riskinin dərəcəsinə görə riskləri kateqoriyalara bölmək və rəhbərliyin diqqətini eyni vaxtda baş verən risklərə yönəltmək məqsədilə riskdərəcələnməsi sisteminin yaradılması və saxlanılması. Xüsusi kredit risklərinə qarşı dəyərsizləşmə ehtiyatlarının tələb oluna biləcəyini müəyyən etmək üçün risklərin dərəcələrə bölünməsi sistemindən istifadə olunur. Risklərin dərəcələrə bölünməsinin hazırki strukturu gecikmə riskinin müxtəlif dərəcələrini və risklərin azaldılması üzrə girov yaxud digər vasitələrin olmasını əks etdirən bir neçə dərəcədən ibarətdir. Risk dərəcələrinin müəyyən edilməsinə görə məsuliyyət müvafiq olaraq baş təsdiqedici direktorun komitənin üzərinə düşür. Risk dərəcələri müntəzəm olaraq nəzərdən keçirilir
- Cəmiyyət üzrə kredit riskinin idarə olunmasında ən qabaqcıl təcrübəni təşviq etmək üçün şöbələrə məsləhət, təlimat, mütəxəssis səriştəsinin verilməsi.

Hər bir filialdan Cəmiyyətin kredit siyasəti və prosedurlarını Kredit Şöbəsinin verdiyi kredit təsdiqləmə səlahiyyətləri çərçivəsində tətbiq etmək tələb olunur. Hər bir filialın kredit ilə əlaqədar bütün məsələləri Cəmiyyətin rəhbərliyi və kredit şöbəsinə məruzə edən meneceri vardır.

Hər bir filial ona aid kredit portfelinin keyfiyyəti və fəaliyyətinə habelə mərkəzdən təsdiqlənməli risklər də daxil olmaqla, portfelindəki bütün kredit risklərinə nəzarətin təmin edilməsinə görə məsuliyyət daşıyır.

Kreditlərin ayrılması üzrə öhdəliklər kredit, zəmanət və ya akkreditiv formasında çıxış edən istifadə edilməmiş kredit vəsaitlərindən ibarətdir. Balansdankənar maliyyə alətləri üzrə kredit riski müqavilə tərəfinin müqavilə şərtləri və müddəalarına əməl edə bilməməsi nəticəsində zərərin baş verməsi mümkünlüyü ilə müəyyən olunur.

Kreditin ayrılması öhdəliyi üzrə kredit riskinə gəldikdə isə, Cəmiyyət realizə edilməmiş belə öhdəliklərin ümumi məbləğinə bərabər potensial zərər riski ilə üzləşir.

Lakin, zərərin ehtimal edilən məbləği cəmi istifadə edilməmiş kredit öhdəliklərindən azdır.

Cəmiyyət maliyyə vəziyyəti haqqında hesabat və maliyyə alətləri halında olduğu kimi, riskin təsir nəticələrinin yumuşaldılması üçün limitləri və cari monitorinq prosesini tətbiq etməklə kreditlərin verilməsinin təsdiqlənməsi proseduruna əsaslanan eyni kredit siyasətini şərti öhdəliklərə də qarşı istifadə edir.

Cəmiyyət balansdankənar uçotda əks etdirilən şərti öhdəliklərin ödəniş müddətinə qədər dövrü nəzarətdə saxlayır, çünki daha uzunmüddətli öhdəliklər qısamüddətli kredit öhdəlikləri ilə müqayisədə daha çox kredit riski dərəcəsinə məruz qalır.

Kredit riskinə maksimal məruzqalma həddi

Cəmiyyət kredit riskinə məruzqalma həddi əhəmiyyətli dərəcədə dəyişir və həm fərdi risklərdən, həm də ümumi bazar iqtisadiyyatı risklərindən asılıdır.

Aşağıdakı cədvəldə balans hesabatı, eləcə də balansdan kənar hesabatda əks etdirilən maliyyə aktivləri ilə bağlı kredit riskinə maksimal məruzqalma həddi göstərilir. Maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilən maliyyə aktivləri halında kredit riskinə maksimal məruzqalma həddi həmin aktivlərin hər hansı əvəzləşdirmədən və girov sövdələşməsindən qabaq balans dəyərinə bərabərdir.

Cəmiyyətin şərti öhdəlikləri və kreditin ayrılması ilə bağlı öhdəlik üzrə kredit riskinə maksimal məruzqalma həddi isə, qarşı tərəfin öhdəliklərini yerinə yetirmədiyi təqdirdə həmin alətlərin müqavilə üzrə məbləğlərindən ibarət olur ki, bu halda qarşı iddialar, girov və təminatlar dəyərini itirir.

**Balansdankənar risk**

Cəmiyyət balans uçotu halında olduğu kimi, əsas etibarı ilə, balansdan kənar müddəalər halında da risklərin idarə edilməsi üzrə eyni siyasətləri tətbiq edir. Kreditlərin ayrılmasına öhdəliklər halında isə, həmçinin kredit və avanslar halında olduğu kimi, müştərilər və qarşı tərəflər ilə bağlı eyni kredit riskinin idarə edilməsi siyasətləri tətbiq olunur. Girov qarşı tərəfin imkanları vəəməliyyatın mahiyyətindən asılı olaraq tələb edilə bilər.

**Girov**

Tələb olunan girovun məbləği və növü qarşı tərəf ilə bağlı kredit riskinin qiymətləndirilməsindən asılı olaraq müəyyənləşdirir. Girov növlərinin qəbul edilə bilməsi və qiymətləndirmə parametrlərinə dair qaydalar tətbiq olunur.Fiziki şəxslərəkreditlərin verilməsi üçün komissiyalar daşınmaz əmlak, mal-material ehtiyatları və şəxsi zəmanətlər kimi qəbul edilmiş əsas girov növlərinə hesablanır.

Rəhbərlik girovun bazar dəyərini nəzarətdə saxlayır, baza sazişinəəsasən əlavəgirov tələb edir, habelə dəyərsizləşmə zərəri üçün ehtiyatın müvafiq məbləğdə olduğunu təhlil etdiyi müddətdə aldığı girovun bazar qiymətlərinə nəzarət edir.

**Bazar riski**

Bazar riski bazardakı qiymət və məzənnələr səviyyəsində dəyişikliklərin yaxud onların mütərəddidliyinin Cəmiyyətin gəlir və ya kapitalına yaxud da onun biznes məqsədlərinin reallaşdırılması imkanlarına mənfi təsir göstərməsi riskidir.

Bazar riski faiz dərəcəsi riski kimi, valyuta riski, kredit spredləri, əmtəə qiymətləri və qiymətli kağızların qiyməti aiddir. Cəmiyyətin ölçmə üsullarında və ya üzləşdiyi riskdə yaxud da qeyd olunan risklərin idarə edildiyi və ölçüldüyü tərzdə heç bir dəyişikliklər baş verməmişdir.

Cəmiyyət daxilindəki müəssələr həm sabit, həm də dəyişkən ("üzən") faiz dərəcələri ilə borc vəsaitlər cəlb edildiyindən Cəmiyyət faiz riskləriilə üzləşir. Risk Cəmiyyət tərəfindən sabit və üzən faiz dərəcələrinin müvafiq şəkildə vəhdəti yaradılmaqla idarə olunur.

Müşahidə Şurası həmçinin Cəmiyyət müsbət faiz marjası ilə təmin edən onun faiz dərəcəsi mövqeyini uyğunlaşdırmaqla faiz riskini və bazar risklərini idarə edir. Nəzarət şöbəsi Cəmiyyətin cari maliyyə nəticələrinin monitorinqini həyata keçirir, Cəmiyyətin faiz dərəcələrindəki dəyişikliklərə həssaslığını və mənfəətinə təsirini qiymətləndirir.

Cəmiyyətin bəzi maliyyə öhdəlikləri ya dəyişkən faiz dərəcəsi daşıyır, ya da ki, kreditorun seçimi ilə faiz dərəcələrinin dəyişilə bilməsini nəzərdə tutan maddə daxil edilir. Cəmiyyət faiz dərəcəsi marjasını nəzarətdə saxlayır və bu səbəbdən əhəmiyyətli faiz dərəcəsi riskinə və ya sonrakı pul vəsaitlərinin hərəkətli riskinə məruz qalmadığını hesab edir.

**Faiz dərəcəsinə qarşı həssaslıq**

Cəmiyyət bazar mühitindəki mənfi dəyişikliklərdən irəli gələ biləcək potensial itkiləri dövri olaraq hesablamaqla ədalətli dəyərin faiz dərəcəsi riskini idarə edir. Nəzarət şöbəsi Cəmiyyətin cari maliyyə nəticələrinin monitorinqini həyata keçirir, Cəmiyyətin ədalətli dəyərin faiz dərəcələrindəki dəyişikliklərə həssaslığını və onun gəlirliyinə təsirini hesablayır. Aşağıda göstərilən həssaslıq təhlili hesabat dövrünün sonunda həm derivativ, həm də qeyri-derivativ alətlər üzrə faiz riskinə məruzqalma əsasında müəyyən edilmişdir. Üzən faiz dərəcəsi daşıyan öhdəliklər üzrə təhlil dövrün sonunda öhdəliyin ödənilməmişməbləğinin bütün il üzrə ödənilmədiyini hesab etməklə həyata keçirilir. Cəmiyyət daxilində faiz dərəcəsi barədəəsas idarə heyətinə məlumat verildikdə 50 baza dərəcəsində artım və ya azalmaya istinad edilir ki, bu da rəhbərliyin faiz dərəcələrində mümkün dəyişikliklərin qiymətləndirilməsini əks etdirir.

**Valyuta riski**

Valyuta riski xarici valyuta mübadiləsi məzənnələrində dəyişikliklər baş verməsi səbəbindən maliyyə alətlərinin dəyəri qeyri-müəyyən olacağı ilə bağlı riskdir. Cəmiyyət üstünlük təşkil edən xarici valyuta mübadiləsi məzənnəsində dəyişikliyin baş verməsi nəticəsində onun maliyyə vəziyyəti və vəsaitlər hərəkətinin təsirə məruz qala biləcəyi halı ilə üzləşir.

Müşahidə Şurası təxmin edilən AZN məzənnəsinin dəyişməsi və digər makroiqtisadi göstəricilərəsasında açıq valyuta mövqeyinin idarəedilməsi yolu ilə valyuta riskinə nəzarət edir ki, bu da Cəmiyyətə valyutaların milli valyutaya qarşı mübadilə məzənnələrinin dəyişkənliyindən irəli gələn əhəmiyyətli zərərin azaldılması üçün imkan yaradır.

**Həsaslıq təhlili üzrə məhdudiyyətlər**

Əslində, ehtimallar və digər amillər arasında qarşılıqlı əlaqə mövcuddur. O cümlədən qeyd etmək lazımdır ki, bu həssaslıqlar sabit deyil və iri yaxud xırda təsirlər bu nəticələrdən interpolyasiya və ya ekstrapolyasiya edilməlidir.

Həssaslıq təhlili Cəmiyyətin aktivlərinin və öhdəliklərinin fəal şəkildə idarə edildiyini nəzərə almır. Bundan əlavə, Cəmiyyətin maliyyə vəziyyəti bazarda dəyişikliklər baş verdikdə dəyişə bilər. Məsələ, Cəmiyyətin maliyyə riskinin idarə edilməsi strategiyası bazardakı dəyişikliklərə qarşı həssaslığın idarə edilməsini nəzərdə tutur. Bazardakı dəyişikliklər müəyyən həddi keçdikdə Cəmiyyətin rəhbərliyi bəzi investisiyaları satmaq, investisiya portfelinin strukturunu dəyişdirmək və ya müəyyən siğortalıyıcı addımlar atmaq kimi qərarlar həyata keçirə bilər. Nəticədə, aktivlər maliyyə vəziyyəti haqqında bazar dəyəri ilə qiymətləndirdikdə fərziyyələrdəki dəyişikliklər öhdəliklərə heç bir təsir göstərməyə bilər. Belə hallarda aktivlər və öhdəliklər üçün müxtəlif qiymətləndirmə bazasından istifadə edilməsi sahmdar kapitalının dəyişməsinə gətirib çıxara bilər.

Yuxarıda həssaslıq təhlillərinin digər məhdudiyyətlərinə Cəmiyyətin yalnız dəqiqliklə proqnozlaşdırılması mümkün olmayan qısamüddətli bazar dəyişikliklərinə dair mövqeyini əks etdirən potensial riski nümayiş etdirmək üçün şərti (hipotetik) bazar dəyişikliklərindən istifadə olunması və bütün faiz dərəcələrinin eyni qaydada hərəkət edecəyi ilə bağlı təxminlər daxildir.

**Qiymət riski olan məhsullar**

Cəmiyyət ümumi və ya xüsusi bazar dəyişiklikləri nəticəsində öz məhsulları üzrə qiymət riskinə məruz qalır.

Cəmiyyət qiymət riskini bazar şəraitindəki mənfi dəyişikliklərdən irəli gələn potensial itkiləri dövrü olaraq hesablamaqla və müvafiq zərər-həddi ("stop-loss") məhdudiyyətlərini, habelə marja və girov tələblərini müəyyənləşdirib saxlamaqla idarə edir. İstifadə edilməmiş kredit öhdəlikləri halında isə, Cəmiyyət belə öhdəliklərin ümumi məbləğində bərabər həcmdə potensial zərərlə üzləşir. Lakin, ehtimal edilən məbləği bundan azdır, çünki, öhdəliklərin əksəriyyəti kredit müqavilələrində göstərilən bəzi şərtlərdən asılıdır.

**Əməliyyat riski**

Əməliyyat sistemdəki nasazlıq, əməliyyatçının səhvi, saxtakarlıq və digər xarici hadisələr nəticəsində yaranmış zərərdir. Nəzarətlər yerinə yetirilmədikdə, əməliyyat riskləri müəssisənin nüfuzuna xələl gətirə, hüquqi və ya inzibati nəticələrinə səbəb ola və ya maliyyə itkilərinə gətirib çıxara bilər. Cəmiyyət bütün əməliyyat risklərinin aradan qaldırılmasını gözləmir, lakin özünün nəzarət konsepsiyası ilə, habelə potensial risklərə nəzarət və ya onlara qarşı cavab tədbirləri görməklə bu riskləri idarə etməyə çalışır. Nəzarətlərə vəzifə bölgüsünün, sitemə çıxışın, təsdiqlənmə və üzləşdirmə prosedurlarının, heyətin təlimi və qiymətləndirmə proseslərinin səmərəli təşkili daxildir.

## 19. HESABAT TARİXİNDƏN SONRAKI HADİSƏLƏR

Hesabat tarixindən sonra hər hansı bir hadisə baş verməmişdir.